Təsisçi: Daşkəsən Rayon İcra Hakimiyyəti və qəzetin jurnalist kollektivi

Qəzet 1933-cü ildən çıxır | № 3 (5833) | Avqust-Noyabr 2021-ci il | Qiyməti 60 qəpik

PREZİDENT İLHAM ƏLİYEV: "BİZ QARABAĞ HƏQİQƏTLƏRİNİ, İŞĞALLA BAĞLI ERMƏNİ VƏHŞİLİYİNİ DÜNYA İCTİMAİYYƏTİNƏ ÇATDIRA BİLDİK".

• Avqustun 3-də Prezident İlham Əliyev 6 saylı Bakı "ASAN xidmət" mərkəzinin açılışında iştirak edib.
• Avqustun 6-da Prezident İlham Əliyev əsaslı şəkildə yenidən qurulan 110/35/6 kilovoltluq "Suraxanı" yarımstansiyasının açılışında iştirak edib.
• Avqustun 9-da Prezident İlham Əliyev əsaslı şəkildə yenidən qurulan 500/330/220 kilovoltluq "Abşeron" yarımstansiyasının açılışında iştirak edib.
• Avqustun 16-da Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcər və Laçın rayonlarında olublar.
• Avqustun 26-da Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Abşeron rayonunda şəhid ailələrinə, müharibə əlillərinə, Vətən müharibəsi qəhrəmanlarına mənzillərin və avtomobillərin təqdim olunması mərasimində və "Gənclik" parkının açılışında iştirak ediblər.
• Avqustun 29-da Prezident İlham Əliyev Əhmədbəyli-Füzuli-Şuşa Zəfər yolunda son tamamlama işləri ilə tanış olub.
• Avqustun 29-da Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli Beynəlxalq Hava Limanında görülən işlərlə tanış olublar, Şuşada "Qarabağ" hotelinin açılışında iştirak ediblər, Şuşada Xüsusi nümayəndəliyin yerləşəcəyi inzibati binada aparılan bərpa işləri ilə tanış olublar, Molla Pənah Vaqifin Şuşada büstünün açılışında iştirak ediblər, Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin təmir-bərpa və yenidənqurma işlərindən sonra açılış mərasimində və Bülbülün ev-muzeyinin açılışında iştirak ediblər, Üzeyir Hacıbəylinin Şuşa şəhərindəki ev-muzeyində aparılacaq işlərlə tanış olublar.
• Avqustun 30-da Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada Vaqif Poeziya Günlərinin açılışında iştirak ediblər.
• Sentyabrın 3-də Prezident İlham Əliyev Sumqayıt şəhərinə səfərə gəlib, bir sıra açılışlarda iştirak edib.
• Sentyabrın 10-da Prezident İlham Əliyev "Kəlbəcər" neftdaşıyan tankerin istismara verilməsi mərasimində iştirak edib.
• Sentyabrın 24-də BMT Baş Assambleyasının 76-cı sessiyasının illik ümumi müzakirələrində Azərbaycan Prezidenti İlham Əliyevin videoformatda çıxışı təqdim olunub.
• Sentyabrın 27-də Prezident İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva Vətən müharibəsi şəhidlərinin xatirəsinə ehtiram əlaməti olaraq keçirilən yürüşdə iştirak ediblər.
• Oktyabrın 3-də Prezident İlham Əliyev Tərtər və Bərdə rayonlarında səfərdə olub, bir sıra açılışlarda iştirak edib.
• Oktyabrın 4-də Prezident İlham Əliyev Cəbrayıl rayonuna səfərə gəlib, bir sıra açılışlarda və təməlqoyma mərasimlərində iştirak edib.
• Oktyabrın 9-da Prezident İlham Əliyev Xocavənd rayonunun Hadrut qəsəbəsinə və Tuğ kəndinə səfər edib.
• Oktyabrın 11-də Prezident İlham Əliyev Qoşulmama Hərəkatının Yüksək Səviyyəli Toplantısında videoformatda çıxış edib.
• Oktyabrın 15-də Prezident İlham Əliyev Müstəqil Dövlətlər Birliyinin Dövlət Başçıları Şurasının videokonfrans formatında keçirilən iclasında iştirak edib.
• Oktyabrın 17-də Prezident İlham Əliyev Füzuli rayonunda səfərdə olub, bir sıra açılışlarda və təməlqoyma mərasimlərində iştirak edib.
• Oktyabrın 20-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Zəngilan rayonunda səfərdə olublar, bir sıra açılışlarda və təməlqoyma mərasimlərində iştirak ediblər.
• Oktyabrın 25-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Qubadlı rayonunda səfərdə olublar, bir sıra açılışlarda və təməlqoyma mərasimlərində iştirak ediblər.
• Oktyabrın 26-da Prezident İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Füzuli Beynəlxalq Hava Limanının açılış mərasimində iştirak ediblər, Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun (Zəngəzur dəhlizi) təməlini qoyublar.
• Noyabrın 1-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva İsmayıllı və Şamaxı rayonlarında səfərdə olublar, bir sıra açılışlarda iştirak ediblər.
• Noyabrın 4-də Prezident İlham Əliyev VIII Qlobal Bakı Forumunun açılış mərasimində çıxış edib.
• Noyabrın 7-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşa şəhərində səfərdə olublar, bir sıra açılışlarda və təməlqoyma mərasimlərində iştirak ediblər.
• Noyabrın 8-də Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Şuşada hərbçilər qarşısında çıxış edib.
• Noyabrın 11-də Prezident İlham Əliyev Türkiyə Respublikasına səfərə gəlib.
• Noyabrın 12-də Prezident İlham Əliyevə Türk Dünyasının Ali Ordeni təqdim edilib.
• Noyabrın 26-da Prezident İlham Əliyev Soçi şəhərinə işgüzar səfərə gəlib.

İkinci Qarabağ müharibəsi şanlı tariximizin parlaq səhifəsidir. Azərbaycan xalqı bütün gücünü səfərbər edib bu şanlı missiyanı yerinə yetirmişdir. Mən işğal dövründə dəfələrlə deyirdim ki, hər bir Azərbaycan vətəndaşı bu müqəddəs günü öz işi ilə, öz əməli ilə yaxınlaşdırmalıdır. Mən demişdim ki, heç vaxt Azərbaycan xalqı işğalla barışmayacaq və biz işğala son qoymaq üçün bütün gücümüzü səfərbər edib bir nöqtəyə vuraraq düşməni tarixi torpaqlarımızdan qovduq.

Zəfər Günü bizim bayramımızdır. Bu, Zəfər bayramıdır, bu, rəşadət bayramıdır, bu, ədalət bayramıdır, bu, milli qürur, milli ləyaqət bayramıdır. Biz öz ləyaqətimizi bərpa etdik. Bundan sonra müzəffər ölkə və qalib xalq kimi əbədi yaşayacağıq. Bundan sonra Qarabağda və Zəngəzurda əbədi yaşayacağıq. Əgər Ermənistanda hər hansı bir qüvvə bizə xor baxsa, hansısa revanşist meyillərə əl atsa, bizim yumruğumuzu görəcəkdir. Bizim yumruğumuz yerindədir.

İLHAM ƏLİYEV
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
ŞUŞA ŞƏHƏRİ, 8 NOYABR 2021-Cİ İL

DAŞKƏSƏNDƏ 27 SENTYABR – ANIM GÜNÜ QEYD OLUNUB



Sentyabrın 27-də Daşkəsəndə Anım Günü münasibətilə rayonun 4500-dən çox sakini Daşkəsən rayon Şəhidlər Xiyabanını ziyarət edib.

Daşkəsən rayon İcra hakimiyyətinin başçısı Əhəd Abıyev Şəhidlər Xiyabanındakı əbədi məşəlin önünə əklil qoyub.

Əhəd Abıyev ümumrayon tədbirində çıxış edib. O deyib:

- Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin 2 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən Vətənimiz uğrunda qəhrəmancasına döyüşmüş, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş bütün şəhid əsgər və zabitlərimizin əziz xatirəsinə dərin hörmət və ehtiram əlaməti olaraq sentyabrın 27-si Anım Günü kimi Azərbaycanın bütün ərazi bölgələrində, şəhər və rayonlarında, o cümlədən Daşkəsən rayonunda qeyd edilir.

Bu Anım Günündə Şəhidlərimizin ruhuna dualar oxunur, onların əziz xatirəsi yad edilir.

Cəmi 44 gün davam edən Vətən Müharibəsində Azərbaycan Ordusu işğalçı Ermənistanın 30 il ərzində qurduğu ordunu darmadağın edərək böyük tarixi qələbəyə nail oldu. Atıq Qarabağ Azərbaycan xalqı üçün arzu deyil, reallıqdır. Bu reallığı yaradan və qələbəmizi təmin edən Prezidentimiz, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevə, fədakar qalib ordumuzun əsgər və zabitlərinə, qazilərimizə, bütün şəhidlərimizə daşkəsənlilər adından sonsuz minnətdarlığımızı ehtiramla bildiririk.

Vətən övladları şəhidlərimizin əziz xatirəsi qəlbimizdə daim yaşayacaqdır!

Allah bütün şəhidlərimizə rəhmət eləsin, əziz ruhları şad olsun!

Sonra rayon rəhbərliyi, hüquq-mühafizə orqanlarının əməkdaşları, hərbçilər, ictimaiyyət nümayəndələri və sakinlər qəmli musiqi sədaları altında şəhid məzarlarına gül düzüblər.

Əhəd Abıyev şəhid ailələri, Qarabağ müharibəsi əlilləri və iştirakçıları, rayon ağsaqqalları və veteranları ilə görüşüb, onların qayğıları ilə maraqlanıb.

Anım Günündə şəhid ailələrinin üzvləri, qazi və Vətən Müharibəsi iştirakçıları hüquq-mühafizə orqanları ilə birgə rayonun Şəhidlər Xiyabanı ərazisində şəhidlərin xatirəsinə ağacəkmə aksiyası keçiriblər. Əhəd Abıyev əkilmiş 500-dən çox ağaca mütəmadi qulluq göstərilməsi üçün tapşırıqlarını verib.

Daha sonra Daşkəsən rayon İcra hakimiyyətinin başçısı Əhəd Abıyev rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri ilə birgə Vətən Müharibəsi şəhidi Ələsgərov Pərviz Lətif oğlunun doğum gününü yad etmək üçün Mədənçilər qəsəbəsində Şəhidin valideynlərinin yaşadığı evdə olub. Əhəd Abıyev şəhidin valideynləri ilə söhbət edib, Pərviz Ələsgərovun döyüş yolundan söhbət açıb. Həmçinin rayon rəhbəri şəhid ailələri və qazilərlə bağlı Prezident cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın ardıcıl mühüm tədbirlər gördüyünü diqqətə çatdırıb. Şəhidin atası Lətif Ələsgərov, anası Aybəniz Ələsgərova ailələrinə göstərilən diqqət və qayğıdan razı qaldıqlarını və buna görə minnətdarlıqlarını bildiriblər.

Anım Günündə Əhəd Abıyev Xoşbulaq kənd qəbiristanlığında Vətən Müharibəsi şəhidi Bağırov Eşqin Rafiq oğlunun məzarını da ziyarət edib, ailə üzvləri ilə görüşüb, qayğıları ilə maraqlanıb.

Sonra Əhəd Abıyev Qazaxyolçular kəndinə gələrək Vətən Müharibəsi şəhidi Cabbarov Muraz İlham oğlunun xatirəsinə inşa olunan bulağın tikinti işlərinin gedişatını izləyib, lazımi köməklik göstərib.

Anım Günündə rayon İcra hakimiyyətinin məsul əməkdaşları Gəncə şəhər Şəhidlər Xiyabanında daşkəsənli şəhid məzarlarını da ziyarət ediblər.

Bu gün Prezident cənab İlham Əliyevin, Birinci vitse-prezident çox hörmətli Mehriban xanım Əliyevanın şəhidlərimizə, şəhid ailələrinə, qazilərimizə göstərdiyi diqqət və qayğı nümunə olmaqla, şəhidlərimizin xatirəsi xalqımız üçün daim əzizdir.

Vətən Müharibəsində Daşkəsən rayonundan da yüzlərlə gənc könüllü olaraq ordu sıralarına qoşulmuş, torpaqlarımızın azad olunması uğrunda gedən döyüşlərdə misilsiz qəhrəmanlıq dastanı yazmışlar. Onlardan 32 nəfər müqəddəs şəhidlik zirvəsinə ucalmışdır.

Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin xatirəsini və adını uca tutmaq, onların yaxınlarına, doğmalarına, ailə üzvlərinə diqqət və qayğı göstərmək bizim hər birimizin vətəndaşlıq borcumuzdur.

DAŞKƏSƏN RAYON İCRA HAKİMİYYƏTİNİN BAŞÇISI ƏHƏD ABIYEV VƏTƏN MÜHARİBƏSİ İŞTİRAKÇILARI, QAZİLƏRLƏ GÖRÜŞÜB

Sentyabrın 16-da Daşkəsəndə Vətən Müharibəsi iştirakçıları və qazilərlə görüş keçirilib. Görüşdə Daşkəsən rayon İcra hakimiyyətinin başçısı Əhəd Abıyev və Vətən Müharibəsi qaziləri iştirak ediblər.

Əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsi ziyarət edilib.

Görüş ulu öndər Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

Görüşdə çıxış edən Daşkəsən rayon İcra hakimiyyətinin başçısı Əhəd Abıyev bildirib ki, möhtərəm Prezident, Müzəffər Ali Baş Komandanımız cənab İlham Əliyev və onun rəhbərlik etdiyi Azərbaycan Ordusunun əsgər və zabitləri böyük şücaət həyata keçirdilər. Artıq Qarabağ xalqımız üçün arzu deyil, həqiqət və xalqımızın özünütəsdiqidir. . Bu reallığı yaradan və qələbəmizi təmin edən Prezidentimiz, Müzəffər Ali Baş Komandanımız cənab İlham Əliyev başda olmaqla, fədakar əsgər və zabitlərimizə bütün daşkəsənlilər adından bir daha sonsuz minnətdarlığımızı bildiririk.

Rayon rəhbəri vurğulayıb ki, Prezident cənab İlham Əliyevin tapşırığına əsasən Daşkəsən rayonunda şəhid ailələrinin, qazilərin və hərbi xidmətdən tərxis olunanların qayğıları həmişə olduğu kimi Daşkəsən rayon İcra hakimiyyətinin nəzər və diqqətindədir. Belə ki, mütəmadi olaraq şəhid və qazi ailələri ziyarət edilir, şəhidlərin anım və doğum günləri ictimaiyyət nümayəndələrinin iştirakı ilə qeyd olunur, problemləri öyrənilir, onların həlli üçün aidiyyəti qurumlarla birlikdə lazımi tədbirlər görülür.

Söhbət zamanı Vətən müharibəsi iştirakçıları və qazilər keçdikləri döyüş yolundan danışıb, öz təəssüratlarını bölüşüblər. Qazi Rüfət Məmmədov qeyd edib ki, onlar Vətən və dövlət qarşısında öz vətəndaşlıq borclarını yerinə yetiriblər. Bununla belə, Azərbaycan xalqının dəstəyi, yüzlərlə, minlərlə gəncin könüllü döyüşlərə yollanması onlara əlavə güc verib.

Qazi Fəqan Süleymanov isə deyib ki, bizim bu döyüşdə qələbədən başqa yolumuz yox idi.

Əhəd Abıyev bildirib ki, şəhid ailələri, qazilər və Vətən Müharibəsinin iştirakçıları daim dövlətimizin qayğısını hiss edəcəklər.

Sonra Daşkəsən rayon Şəhidlər Xiyabanına gedilərək Vətən Müharibəsi qazilərinin iştirakı ilə rayon Şəhidlər Xiyabanında yeni quraşdırılmış dirəkdə Azərbaycan Bayrağı ucaldılıb və şəhid məzarları ziyarət olunub.

Vətən Müharibəsi qaziləri onlara göstərilən daimi diqqət və qayğıya görə Prezident cənab İlham Əliyevə və Birinci vitse-prezident hörmətli Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildiriblər.

DAŞKƏSƏNDƏ 8 NOYABR – ZƏFƏR GÜNÜ QEYD EDİLİB, AĞACƏKMƏ AKSİYASI KEÇİRİLİB

Daşkəsən rayonunda 8 Noyabr – Zəfər Günündə silsilə tədbirlər keçirilib. Əvvəlcə Daşkəsən Şəhidlər Xiyabanı ziyarət olunub, eyni zamanda daşkəsənli Vətən Müharibəsi şəhidi gizir İsmayılov Novruz Nürəddin oğlunun anım günü qeyd edilib.

Tədbirdə Daşkəsən rayon İcra hakimiyyətinin başçısı Əhəd Abıyev, rayonun hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərləri, şəhid ailələri, qazilər, Vətən müharibəsi iştirakçıları, ziyalılar, ictimaiyyət nümayəndələri və sakinlər iştirak ediblər.

Əvvəlcə Azərbaycanın müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad olunub, şəhid məzarları ziyarət edilib, tər güllər düzülüb, dualar oxunub.

Daşkəsən rayon İcra hakimiyyətinin başçısı Əhəd Abıyev Daşkəsən Şəhidlər Xiyabanında çıxış edib. O, çıxışında deyib:

- Bu gün noyabrın 8-i İkinci Qarabağ müharibəsində möhtəşəm qələbəmizin şərəfinə qeyd edilən tarixi Zəfər günüdür. 8 Noyabr – Zəfər Gününü bütün xalqımız milli birlik və həmrəylik içində qeyd edir.

Zəfər Günü münasibətilə bütün daşkəsənlilər və şəxsən öz adımdan Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevi səmimi qəlbdən təbrik edirik.

Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycan xalqının əzmi və iradəsi, iqtisadi gücü, müasir ordu quruculuğu və xalq-iqtidar birliyi ölkəmizin İkinci Qarabağ müharibəsində qələbəsi ilə nəticələndi. Ötən il sentyabrın 27-dən başlayan, cəmi 44 gün davam edən və Dağlıq Qarabağ da daxil olmaqla, işğal altındakı ərazilərimizin azad edilməsi və qaytarılması ilə nəticələnən Vətən Müharibəsi tariximizin ən parlaq səhifəsi, Azərbaycan xalqının iftixar və qürur mənbəyidir.

Prezident cənab İlham Əliyevin həyata keçirdiyi müdrik və uzaqgörən siyasət Azərbaycanı 30 ilə yaxın davam edən münaqişədə mütləq qalib etməklə, eyni zamanda ərazi bütövlüyümüzü birmənalı olaraq təmin etdi. Bu gün Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə xalqımız əmin-amanlıq, tərəqqi içərisində yaşayır.

Vətən Müharibəsində daşkəsənlilər də Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə fəal iştirak etmiş, qəhrəmancasına vuruşmuş, onlardan 32 nəfər müqəddəs şəhidlik zirvəsinə ucalmışdır.

Belə cəsur döyüşçülərimizdən biri də bu gün anım gününü qeyd etdiyimiz Vətən Müharibəsi şəhidi gizir İsmayılov Novruz Nürəddin oğludur. Novruz İsmayılov 1987-ci ildə Daşkəsən rayonunun Zinzahal kəndində anadan olub. Novruz İsmayılov Xocavəndin və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib, şəxsi igidlik və şücaət göstərib. O, Füzuli döyüşləri zamanı qəhrəmancasına müqəddəs şəhidlik zirvəsinə ucalmışdır. Novruz İsmayılov 8 noyabr 2020-ci il tarixdə Daşkəsən rayonunun Şəhidlər Xiyabanında dəfn edilmişdir. Prezident cənab İlham Əliyevin sərəncamları ilə şəhid Novruz İsmayılov hərbi hissə qarşısında vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

Bu gün Prezident cənab İlham Əliyev və Birinci vitse-prezident hörmətli Mehriban xanım Əliyeva şəhid ailələrinə, qazilərimizə və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib, şəxsi igidlik və şücaət göstərirlər. Bütün Daşkəsənlilər adından dövlət rəhbərimizə, Prezident cənab İlham Əliyevə və Birinci vitse-prezident hörmətli Mehriban xanım Əliyevaya minnətdarlığımızı bildiririk.

Sonra Daşkəsən şəhərinin girişindəki ərazidə Zəfər Günü ilə əlaqədar ağacəkmə aksiyası keçirilib. Ağacəkmə aksiyası zamanı rayon rəhbərliyi, şəhid anaları, qazilər, rayon ictimaiyyətinin nümayəndələri və gənclərin iştirakı ilə ümumilikdə 500 eldar şamı və digər həmişəyaşıl ağaclar əkilib.

Rayon İcra hakimiyyətinin başçısı Əhəd Abıyev və rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, ictimaiyyət nümayəndələri, şəhid valideynləri, qazilər Vətən Müharibəsi şəhidi gizir İsmaylov Novruz Nürəddin oğlunun anım günü ilə bağlı Gəncə şəhərində Şəhidin valideynlərinin yaşadığı evə də baş çəkiblər.

DAŞKƏSƏNDƏ VƏTƏN MÜHARİBƏSİ ŞƏHİDLƏRİNİN ANIM GÜNLƏRİ KEÇİRİLİB

Sentyabrın 29-da Vətən Müharibəsi şəhidi kiçik çavuş Bağırov Eşqin Rafiq oğlunun anım günü Xoşbulaq kəndində şəhidin valideynlərinin yaşadığı evdə keçirilib.

Anım günündə Daşkəsən rayon İcra hakimiyytinin başçısı Əhəd Abıyev, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, şəhidin ailə üzvləri, rayonun şəhid anaları və qazilər iştirak ediblər.

Əvvəlcə şəhid Eşqin Bağırovun Xoşbulaq kənd qəbiristanlığında məzarı ziyarət edilib.

Daşkəsən rayon İcra hakimiyyətinin başçısı Əhəd Abıyev Şəhidin valideynləri və ailə üzvləri ilə görüşüb, şəhid Eşqin Bağırovun otuz illik qısa ömür və döyüş yolundan danışıb. Daşkəsən rayonundan başlayan Murovdağ döyüşləri haqqında xatirələrini söyləyib.

Əhəd Abıyev həmçinin Daşkəsən rayonunda da şəhid ailələrinə hərtərəfli diqqət və qayğı göstərilməsini bildirərək bu istiqamətdə görülən işlərin dövlətimizin başçısı Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin və Birinci vitse-prezident hörmətli Mehriban xanım Əliyevanın daim nəzarətində olduğunu qeyd edib.

Prezident cənab İlham Əliyevin sərəncamları ilə şəhidimiz Eşqin Bağırov "Vətən uğrunda", "İgidliyə görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

Şəhidin atası Rafiq Bağırov, anası Nazilə Bağırova ailələrinə göstərilən diqqət və qayğıya görə ölkə başçısı cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıq bildiriblər.

***

Oktyabrın 2-də daşkəsənli Vətən Müharibəsi şəhidləri gizir Alıyev Vahid Abbas oğlunun Alunitdağ qəsəbəsində və əsgər Quliyev Elvin Amil oğlunun Əhmədli kəndində keçirilmiş anım tədbirlərində Daşkəsən rayon İcra hakimiyyətinin məsul əməkdaşları, Milli Məclisin deputatı Kamran Bayramov, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, şəhidlərin yaxınları, şəhid ailələri, qazilər, hərbçilər, müharibə iştirakçıları və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Əvvəlcə ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin xatirəsi yad edilib.

Açılış mərasimlərində çıxış edən Daşkəsən rayon İcra hakimiyyəti başçının müavini Namiq Süleymanov və Millət vəkili Kamran Bayramov şəhid Vahid Alıyevin və şəhid Elvin Quliyevin şərəfli həyat və döyüş yolundan danışıb, ailə üzvlərinə başsağlığı verib, xalqımızın şəhidlərimizlə qürur duyduğunu vurğulayaraq ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olan vətən övladlarına Allahdan rəhmət diləyiblər. Bildirilib ki, Azərbaycan dövləti öz oğullarının qəhrəmanlıqlarını yüksək qiymətləndirir və onları heç zaman unutmayacaqdır.

Daha sonra Daşkəsən rayon İcra hakimiyyətinin dəstəyi və şəhid valideynlərinin təşəbbüsü ilə Şəhidlərin xatirəsinə tikilmiş bulaq komplekslərinin açılışı olub.

Şəhid Vahid Alıyevin atası Abbas Alıyev, anası Pəri Alıyeva, şəhid Elvin Quliyevin atası Amil Quliyev, anası Elnarə Quliyeva ailələrinə göstərilən diqqət və qayğıdan razı qaldıqlarını və buna görə Prezident cənab İlham Əliyevə və Birinci vitse-prezident hörmətli Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildiriblər.

***

Oktyabrın 13-də Daşkəsən rayon Şəhidlər Xiyabanında Vətən Müharibəsi şəhidi kiçik gizir Abdullayev Şəhriyar Kamil oğlunun anım günü keçirilib.

Tədbirdə Daşkəsən rayon İcra hakimiyyətinin başçısı Əhəd Abıyev, Kəlbəcər rayon İcra hakimiyyətinin başçısı Azər Qocayev, Daşkəsən və Kəlbəcər rayonlarının hüquq-mühafizə orqanlarının rəhbərləri, ictimaiyyət nümayəndələri, şəhidlərin ailə üzvləri, rayonun şəhid anaları, qazilər və KİV mənsubları iştirak ediblər.

Əvvəlcə şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olan vətən övladlarının ruhuna dualar oxunub.

Daşkəsən rayon İcra hakimiyyətinin başçısı Əhəd Abıyev Daşkəsən Şəhidlər Xiyabanında nitq söyləyib. Əhəd Abıyev çıxışında Prezident, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə ötən ilin sentyabrın 27-də başlanan və Zəfərlə başa çatan Vətən Müharibəsində qazanılmış tarixi qələbənin tarixi əhəmiyyətindən danışıb. Bildirib ki, Prezident cənab İlham Əliyev və Birinci vitse-prezident hörmətli Mehriban xanım Əliyeva şəhid ailələrinin, qazilərin və müharibə iştirakçılarının qayğılarını daim diqqət mərkəzində saxlayırlar. Bununla yanaşı, şəhidlərimizin, igid döyüşçülərimizin döyüş yolu öyrənilir və onlara göstərdikləri şücaətlərə görə qiymətləndirilir, təltif olunurlar.

Sonra Daşkəsənin Bayan kəndində Vətən müharibəsi şəhidi Abdullayev Şəhriyar Kamil oğlunun xatirəsinə inşa edilən bulaq kompleksinin açılışı keçirilib. Açılış mərasimində etdiyi çıxışda Daşkəsən rayon İcra hakimiyyətinin başçısı Əhəd Abıyev deyib:

- Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında cəmi 44 gün davam edən Vətən Müharibəsində Azərbaycan Ordusu işğalçı Ermənistan ordusunu darmadağın edərək böyük tarixi qələbəyə nail olub.

Vətən Müharibəsində respublikamızın bütün bölgələrində olduğu kimi Daşkəsən rayonundan da yüzlərlə gənc ordu sıralarına könüllü qoşuldu, ölkəmizin ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə qəhrəmancasına vuruşdular. Onlardan 32 nəfər müqəddəs şəhidlik zirvəsinə ucaldı. Belə cəsur döyüşçülərimizdən biri də Vətən Müharibəsi şəhidi Azərbaycan Ordusunun kiçik giziri Abdullayev Şəhriyar Kamil oğludur. Bütün Daşkəsənlilər adından şəhid Şəhriyar Abdullayevin ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir, Şəhidimizə Allahdan rəhmət diləyirik.

Xüsusi Təyinatlı Qüvvələrin kiçik giziri Şəhriyar Abdullayev Vətən Müharibəsi zamanı Kəlbəcərin, Füzulinin və Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə vuruşub, qəhrəmanlıq nümunələri göstərib. O, 2020-ci il oktyabrın 13-də Hadrut döyüşləri zamanı şəhidlik zirvəsinə ucalıb.

Prezident cənab İlham Əliyevin sərəncamları ilə Şəhriyar Abdullayev hərbi hissə qarşısında qoyulmuş döyüş tapşırıqlarını, vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə", "Hərbi xidmətlərdə fərqlənməyə görə" medalları və "Azərbaycan Bayrağı" ordeni ilə təltif olunub.

Şəhid Şəhriyar Abdullayev qəlbimizdə əbədi yaşayacaq və onun xatirəsi daim əziz tutulacaqdır.

Bu gün Prezident cənab İlham Əliyev və Birinci vitse-prezident hörmətli Mehriban xanım Əliyeva şəhid ailələrinə, qazilərimizə böyük diqqət və qayğı göstərirlər. Buna görə daşkəsənlilər adından Prezident cənab İlham Əliyevə və Birinci vitse-prezident hörmətli Mehriban xanım Əliyevaya minnətdarlığımız bildiririk.

Çıxış edən Kəlbəcər rayon İcra hakimiyyətinin başçısı Azər Qocayev Kəlbəcər rayonundan olan şəhid Şəhriyar Abdullayevə Allahdan rəhmət,

ailəsinə səbir diləyib, şəhidin keçdiyi şərəfli döyüş yolundan söz açıb. Azər Qocayev bildirib ki, qalib Azərbaycan xalqı şəhidlərimizin xatirəsini hər zaman əziz və uca tutacaqdır.

Daha sonra Daşkəsən rayon İcra hakimiyyətinin dəstəyi və Şəhidin valideynlərinin təşəbbüsü ilə tikilmiş bulaq kompleksinin açılışı olub.

Açılış mərasimində həmçinin Şəhidin döyüş yoldaşları xatirələrini bölüşüb, məktəb şagirdləri şeirlər oxuyublar.

Daşkəsən rayon İcra hakimiyyətinin başçısı Əhəd Abıyev şəhid gizir Şəhriyar Abdullayevə "Kəlbəcərin azad olunmasına görə" medalını Şəhidin anası Abdullayeva Firuzə Həsən qızına təqdim edib.

Şəhidin atası Kamil Abdullayev, anası Firuzə Abdullayeva ailələrinə göstərilən diqqət və qayğıdan razı qaldıqlarını və buna görə Prezident cənab İlham Əliyevə və Birinci vitse-prezident hörmətli Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildiriblər.

***

Oktyabrın 26-da Daşkəsən rayon Şəhidlər Xiyabanında Vətən Müharibəsi şəhidi əsgər Abbasov Tacəddin Vüqar oğlunun keçirilən anım mərasimində Daşkəsən rayon İcra hakimiyyətinin başçısı Əhəd Abıyev, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, Şəhidin ailə üzvləri, rayonun şəhid anaları, qazilər, ictimaiyyət nümayəndələri və ziyalılar iştirak ediblər.

Mərasim iştirakçıları şəhid əsgər Tacəddin Abbasovun məzarına gül dəstələri düzərək xatirəsini yad ediblər.

Daşkəsən rayon İcra hakimiyyətinin başçısı Əhəd Abıyev Şəhidin ailəsinə başsağlığı verib Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Vətən Müharibəsində qazanılmış tarixi Qələbədən, eləcə də şəhid əsgər Tacəddin Abbasovun həyat və döyüş yolundan danışıb. Qeyd edib ki, Azərbaycan Ordusunun əsgəri Tacəddin Abbasov Vətən Müharibəsində Xocavənd və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. Tacəddin Abbasov 2020-ci ilin oktyabrın 24-də Füzuli döyüşləri zamanı şəhidlik zirvəsinə ucalıb, oktyabrın 26-da Daşkəsən Şəhidlər Xiyabanında dəfn edilib. Prezident cənab İlham Əliyevin sərəncamları ilə şəhid Tacəddin Abbasov "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunub.

Şəhidin anası Abbasova Həmidə Musa qızı ailəsinə göstərilən diqqət və qayğıdan razı qaldığını və buna görə Prezident cənab İlham Əliyevə və Birinci vitse-prezident hörmətli Mehriban xanım Əliyevaya minnətdarlığını bildirib.

***

Noyabrın 2-də daşkəsənli Vətən Müharibəsi şəhidləri əsgər Şıxıyev Orxan Raqif oğlunun və əsgər Cabbarov Muraz İlham oğlunun Daşkəsən Şəhidlər Xiyabanında anım mərasimləri keçirilib.

Anım mərasimində Daşkəsən rayon İcra hakimiyyətinin başçısı Əhəd Abıyev, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, SHXÇDX-nin rayon bölməsinin rəisi, şəhid anaları, qazilər, ziyalılar və rayonun ictimaiyyət nümayəndələri iştirak ediblər.

Şəhidlərin məzarı üzərinə gül dəstələri qoyulub, dualar oxunub, onların döyüş yolundan söhbət edilib, xatirələri anılıb.

Qeyd edək ki, Şıxıyev Orxan Raqif oğlu 29 sentyabr 1989-cu ildə Daşkəsən rayon Dəstəfur kəndinə anadan olub. Orxan Şıxıyev ötən il noyabrın 2-də Xocavənd istiqamətində gedən döyüşlərdə şəhid olub, 2 noyabr 2020-ci il tarixdə Daşkəsən Şəhidlər Xiyabanında dəfn edilib. Prezident cənab İlham Əliyevin sərəncamları ilə Orxan Şıxıyev ölümündən sonra "Vətən uğrunda" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.

Cabbarov Muraz İlham oğlu 7 mart 2000-ci ildə Daşkəsən rayon Zağalı kəndinə anadan olub. Muraz Cabbarov Kəlbəcərin və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. O, Füzuli

döyüşləri zamanı şəhid olub, 2 noyabr 2020-ci il tarixdə Daşkəsən Şəhidlər Xiyabanında dəfn edilib. Prezident cənab İlham Əliyevin sərəncamlarına əsasən, Muraz Cabbarov "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Cəsur döyüşçü" medalları və 3-cü dərəcəli "Rəşadət" ordeni ilə təltif edilib.

***

Noyabrın 4-də Daşkəsən rayon Şəhidlər Xiyabanında Vətən Müharibəsi şəhidi əsgər Məmmədov Sərxan Sahil oğlunun keçirilən anım mərasimində Daşkəsən rayon İcra hakimiyyətinin başçısı Əhəd Abıyev, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, SHXÇDX-nin rayon bölməsinin rəisi, Şəhidin ailə üzvləri, rayonun şəhid anaları, qaziləri, ziyalılar və rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Mərasim iştirakçıları şəhid əsgər Sərxan Məmmədovun məzarına gül dəstələri düzərək xatirəsini yad edib, ruhuna dualar oxuyublar. Daşkəsən rayon İcra hakimiyyətinin başçısı Əhəd Abıyev Şəhidin ailəsinə başsağlığı verərək çıxış edib. O çıxışında deyib:

- Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında cəmi 44 günlük Vətən Müharibəsində Azərbaycan Ordusu 30 il işğal altında olan torpaqlarımızı ermənilərdən azad edərək düşmən üzərində tarixi qələbə çaldı. Bu Vətən Müharibəsində Daşkəsənlilər də Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə fəal iştirak etmiş, qəhrəmancasına vuruşaraq onlardan 32 nəfər müqəddəs şəhidlik zirvəsinə ucalmışdır. Belə cəsur döyüşçülərimizdən biri də Vətən Müharibəsi şəhidi əsgər Məmmədov Sərxan Sahil oğludur. Sərxan Məmmədov 2001-ci il mayın 9-da Daşkəsən rayon Pirverdilər kəndində anadan olub. O, 2019-cu ilin iyul ayında hərbi xidmətə gedib. Sərxan Məmmədov Vətən Müharibəsində göstərdiyi şücaətləri ilə seçilib. Bir sıra döyüşlərdə düşmənin canlı qüvvəsinin məhv edilməsində, parlaq qələbələrin qazanılmasında yaxından iştirak edib. Sərxan Məmmədov 2020-ci il noyabrın 3-də Daşaltı istiqamətində qəhrəmancasına şəhid olub. Qəhrəman döyüşçümüz 2020-ci il noyabrın 4-də Daşkəsən Şəhidlər Xiyabanında dəfn olunub. Prezident cənab İlham Əliyevin sərəncamları ilə şəhid Sərxan Məmmədov hərbi hissə qarşısında vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə "Vətən uğrunda" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunub. Bu gün Prezident cənab İlham Əliyev və Birinci vitse-prezident hörmətli Mehriban xanım Əliyeva şəhid ailələrinə, qazilərimizə böyük diqqət və qayğı göstərirlər. Bütün Daşkəsənlilər adından dövlət rəhbərimizə, Prezident cənab İlham Əliyevə və Birinci vitse-prezident hörmətli Mehriban xanım Əliyevaya minnətdarlığımızı bildiririk. Allah şəhidimiz Sərxan Məmmədova rəhmət eləsin, onun əziz ruhu şad olsun.

Daha sonra şəhid Sərxan Məmmədovun Pirverdilər kəndində xatirəsinə inşa edilən bulaq-xatirə kompleksinin rayon ictimaiyyətinin iştirakı ilə açılışı olub. Bulaq-xatirə kompleksi şəhidin atası Sahil Məmmədovun təşəbbüsü, Daşkəsən rayon İcra hakimiyyətinin dəstəyi və köməkliyi ilə tikilib.

Bulağın açılış lentini başçısı Əhəd Abıyev, Şəhidin atası Sahil Məmmədov və anası Hicran Məmmədova kəsiblər.

Daşkəsən rayon Pirverdilər kənd ümumi orta məktəbinin şagirdləri vətənpərvərlik mövzusunda şeirlərlə çıxış ediblər.

Şəhidin valideynləri ailələrinə göstərilən diqqət və qayğıdan razı qaldığını və Prezident cənab İlham Əliyevə və Birinci vitse-prezident hörmətli Mehriban xanım Əliyevaya minnətdarlığını bildiriblər.

***

Noyabrın 9-da Daşkəsən rayonunda Bayraq Günü qeyd olunub və rayon Şəhidlər Xiyabanında daşkəsənli Vətən Müharibəsi şəhidi əsgər Abbasov Möhlət Eldəniz oğlunun anım mərasimi keçirilib. Anım mərasimində Daşkəsən rayon İcra hakimiyyətinin başçısı Əhəd Abıyev, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, şəhid anaları, qazilər, ziyalılar, məktəblilər və ictimaiyyət nümayəndələri iştirak ediblər. Şəhidin məzarı üzərinə gül dəstələri qoyulub, dualar oxunub və xatirəsi anılıb.

Daşkəsən rayon İcra hakimiyyətinin başçısı Əhəd Abıyev Şəhidin ailəsinə başsağlığı verdikdən sonra çıxışında deyib:

- 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu genişmiqyaslı təxribat törətməsinə cavab olaraq Azərbaycan Ordusu "Dəmir yumruq" adlandırılan əks-hücum əməliyyatına başladı. 44 gün davam edən Vətən Müharibəsi otuzillik işğala son qoyulması və ərazi bütövlüyümüzün bərpası ilə nəticələndi.

Daşkəsənlilər də Vətən Müharibəsində Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə fəal iştirak etmiş cəsur, igid döyüşçülərimizdən biri də şəhid əsgər Daşkəsən rayon Yuxarı Daşkəsən qəsəbə sakini Abbasov Möhlət Eldəniz oğludur. Möhlət Abbasov 2001-ci ildə andan olub. O, Füzuli, Qubadlı, Zəngilan, Xocavənd və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmiş, şəxsi igidlik və şücaət göstərmişdir. Möhlət Abbasov 7 noyabr 2020-ci il tarixdə Şuşanın Daşaltı istiqamətində gedən döyüşlər zamanı şəhidlik zirvəsinə ucalmış, 9 noyabr 2020-ci il tarixdə Daşkəsən rayonunun Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Prezident cənab İlham Əliyevin sərəncamları ilə şəhid Möhlət Abbasov hərbi hissə qarşısında vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə "Vətən uğrunda", "Cəsur döyüşçü", "Füzulinin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunmuşdur. Allah şəhidimiz Möhlət Abbasova rəhmət eləsin, onun əziz ruhu şad olsun.

Şəhidin anası Cəfərova Qönçə Musa qızı ailəsinə göstərilən diqqət və qayğıdan razı qaldığını və buna görə Prezident cənab İlham Əliyevə və Birinci vitse-prezident hörmətli Mehriban xanım Əliyevaya minnətdarlığını bildirib.

***

Noyabrın 11-də daşkəsənli Vətən Müharibəsi şəhidi əsgər İbrahimov Mübariz Telman oğlunun Daşkəsən rayon Şəhidlər Xiyabanında keçirilən anım mərasimində Daşkəsən rayon İcra hakimiyyətinin başçısı Əhəd Abıyev, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, Şəhidin yaxınları, şəhid ailələri, qazilər, hərbçilər, müharibə iştirakçıları və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Əvvəlcə Şəhidin məzarı üzərinə gül dəstələri düzülüb, dualar oxunub və xatirəsi anılıb.

Çıxış edən Daşkəsən rayon İcra hakimiyyətinin başçısı Əhəd Abıyev şəhid Mübariz İbrahimovun ailə üzvlərinə başsağlığı verib, xalqımızın şəhidlərimizlə qürur duyduğunu vurğulayıb, Şəhidin şərəfli həyat və döyüş yolundan söhbət açıb. O bildirib ki, İbrahimov Mübariz Telman oğlu 1990-cı il yanvarın 14-də Daşkəsən rayon

Xoşbulaq kəndində doğulub. Mübariz İbrahimov müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu, tankçı olub. Azərbaycan Ordusunun əsgəri Mübariz İbrahimov Vətən Müharibəsi zamanı Füzulinin, Cəbrayılın və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Döyüş yoldaşlarının dediyinə görə, "Mübariz İbrahimov ölmədi, sağdır", - deyərək verilən əmrləri qəhrəmanlıqla yerinə yetirib, şəxsi şücaət və igidlik göstərib. 2020-ci il noyabrın 8-də Xocavənd istiqamətində gedən döyüşlərdə Mübariz İbrahimovun tankı vurulur, o, tankdan çıxa bilmir və qəhrəmancasına şəhidlik zirvəsinə ucalır. Mübariz İbrahimov 2020-ci il noyabrın 11-də Daşkəsən Şəhidlər Xiyabanında dəfn edilib. Prezident cənab İlham Əliyevin Sərəncamları ilə Şəhid Mübariz İbrahimov göstərdiyi igidliyə, fədakarlığa və vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə "Vətən uğrunda", "İgidliyə görə", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları və 3-cü dərəcəli "Rəşadət" ordeni ilə təltif olunub.

Daha sonra Daşkəsən rayon İcra hakimiyyətinin dəstəyi və şəhid valideynlərinin təşəbbüsü ilə Xoşbulaq kəndində Azərbaycanın Milli Qəhrəmanı general-mayor Şəhid Polad Həşimovun, Vətən Müharibəsi şəhidləri Eşqin Bağırovla Röyal Məmmədovun və Mübariz İbrahimovun xatirəsinə tikilmiş bulaq komplekslərinin açılışı keçirilib. Bulaqların açılış lentini rayon İcra hakimiyyətinin başçısı Əhəd Abıyevlə Şəhidlərin valideynləri kəsiblər.

Qeyd edək ki, Şəhid generalımız Polad Həşimov uzun müddət Daşkəsən rayon Xoşbulaq kəndində yerləşən N hərbi hissənin komandiri olub. Peşəkar hərbçi və yüksək insani keyfiyyətləri ilə general-mayor Polad Həşimov daşkəsənlilərin böyük hörmət və sevgisini qazanıb. Buna görə də daşkəsənlilərin istəyi ilə onun xatirəsi Xoşbulaq kəndində əbədiləşdirilib.

Şəhid Mübariz İbrahimovun atası Telman İbrahimov, anası Bəsdi İbrahimova, şəhid Eşqin Bağırovun atası Rafiq Bağırov, anası Nazilə Bağırova və şəhid Röyal Məmmədovun atası Qabil Məmmədov, anası Sevda Məmmədova ailələrinə göstərilən diqqət və qayğıdan razı qaldıqlarını və buna görə Prezident cənab İlham Əliyevə və Birinci vitse-prezident hörmətli Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildiriblər.

***

Noyabrın 12-də Daşkəsən rayon İcra hakimiyyətinin məsul işçiləri rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, Şəhidlərin ailə üzvləri, rayonun şəhid anaları, qazilər və ictimaiyyət nümayəndələri ilə birlikdə daşkəsənli şəhidlər kəşfiyyatçı əsgər Abdullayev Həsən Qərib oğlunun və əsgər İsrafilov Vidadi Vaqif oğlunun Gəncə Şəhidlər Xiyabanında yerləşən məzarlarını onların anım günləri ilə əlaqədar ziyarət etmiş, xatirələrini anmışlar.

Daşkəsən rayon İcra hakimiyyəti başçısının müavini Namiq Süleymanov Şəhidlərin ailə üzvlərinə Daşkəsən rayon İcra hakimiyyətinin başçısı Əhəd Abıyevin və bütün Daşkəsən ictimaiyyətinin başsağlığını çatdırdıqdan sonra onların həyatından və keçdikləri şərəfli döyüş yolundan söhbət açmışdır.

Namiq Süleymanov bildirmişdir ki, Abdullayev Həsən Qərib oğlu 21 iyun 1994-cü ildə Daşkəsən şəhərində doğulub. O, Azərbaycan Ordusunun müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi Xüsusi Təyinatlı Qüvvələrin sıralarında xidmət edib. Həsən Abdullayev Vətən Müharibəsində şəxsi igidlik və şücaət göstərib, 9 noyabr 2020-ci ildə Şuşa uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalıb. Həsən Abdullayev 12 noyabr 2020-ci ildə Gəncə Şəhidlər Xiyabanında dəfn edilib. Prezident cənab İlham Əliyevin Sərəncamları ilə Şəhid Həsən Abdullayev göstərdiyi igidliyə, fədakarlığa və vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə "Vətən uğrunda", "Döyüşlərdə fərqlənməyə görə", "Kəlbəcərin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.

İsrafilov Vidadi Vaqif oğlu 18 iyun 1987-ci ildə Daşkəsən rayon Gurbulaq kəndində doğulub. Vidadi İsrafilov Daşkəsən rayon Gurbulaq kənd ümumi orta məktəbinin riyaziyyat müəllimi olub. Vətən Müharibəsi başlayanda könüllü olaraq səfərbərlik üzrə hərbi xidmətə gedib. Onun döyüş yolu Füzuli, Qubadlı və Şuşadan keçib. Vidadi İsrafilov 9 noyabr 2021-ci il tarixdə Şuşa uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalıb. Vidadi İsrafilov 12 noyabr 2020-ci ildə Gəncə Şəhidlər Xiyabanında dəfn edilib. Prezident cənab İlham Əliyevin Sərəncamları ilə Şəhid Vidadi İsrafilov göstərdiyi igidliyə, fədakarlığa və vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.

Şəhid Həsən Abdullayevin atası Qərib Abdullayev və şəhid Vidadi İsrafilovun atası Vaqif İsrafilov ailələrinə göstərilən diqqət və qayğıya görə ölkə başçısı cənab İlham Əliyevə və Birinci vitse-prezident hörmətli Mehriban xanım Əliyevaya minnətdarlıq bildirmişlər.

***

Noyabrın 16-da Vətən Müharibəsi şəhidi əsgər Bəxtiyarov Orxan Sərvər oğlunun anım günü Daşkəsən Şəhidlər Xiyabanında qeyd edilib.

Anım mərasimində Daşkəsən rayon İcra hakimiyyətinin başçısı Əhəd Abıyev, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, "Çovdar" filiz emalı sahəsinin və "Daşkəsən Dəmir Filiz" MMC-nin məsul işçiləri, SHXÇDX-nin rayon bölməsinin rəisi, Şəhidin ailə üzvləri, rayonun şəhid anaları, qazilər və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Əvvəlcə şəhid Orxan Bəxtiyarovun xatirəsi bir dəqiqəlik sükutla yad edilib, məzarına güllər düzülüb, dualar oxunub. Daşkəsən rayon İcra hakimiyyətinin başçısı Əhəd Abıyev Şəhidin ailəsinə başsağlığı verib, səbir diləyib. Əhəd Abıyev çıxışında deyib ki, Vətən Müharibəsi şəhidi əsgər Daşkəsən rayon sakini Bəxtiyarov Orxan Sərvər oğlu 1991-ci ildə Daşkəsən şəhərində andan olub. O, Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmiş, qəhrəmancasına vuruşmuş, şəxsi igidlik və şücaət göstərmişdir. Orxan Bəxtiyarov 2020-ci il noyabrın 7-də Şuşa döyüşləri zamanı şəhidlik zirvəsinə ucalmış, 2020-ci il noyabrın 16-da Daşkəsən Şəhidlər Xiyabanında dəfn olunmuşdur. Prezident cənab İlham Əliyevin sərəncamları ilə şəhid Orxan Bəxtiyarov "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Sonra məktəb şagirdləri Vətənə və şəhidlərimizə həsr olunmuş şeirlər oxuyublar.

Şəhidin anası Gülbəs Bəxtiyarova ailəsinə göstərilən diqqət və qayğıya görə ölkə başçısı cənab İlham Əliyevə və Birinci vitse-prezident hörmətli Mehriban xanım Əliyevaya minnətdarlığını bildirib.

***

Noyabrın 16-da Daşkəsən rayon İcra hakimiyyətinin işçiləri, rayonun hüquq-mühafizə orqanları, SHXÇDX-nin rayon bölməsinin əməkdaşı, Şəhidin yaxınları, şəhid valideynləri, qazilər və rayonun ictimaiyyət nümayəndələri Vətən Müharibəsi şəhidi əsgər İsmayılov Tural Nürəddin oğlunun anım gününü Şəhidin Gəncə Şəhidlər Xiyabanında məzarı yanında keçiriblər.

Anım mərasimində şəhid əsgər Tural İsmayılovun xatirəsi anılıb, ruhuna dualar oxunub, məzarına güllər düzülüb, şərəfli həyat və döyüş yolundan söhbət açılıb. Bildirilib ki, Tural İsmayılov 1999-cu ildə Daşkəsən rayonu Zivlan kəndində andan olmuşdur. O, Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmiş, qəhrəmancasına savaşmış, şəxsi igidlik və şücaət göstərmişdir. Tural İsmayılov 2020-ci il noyabrın 7-də Şuşa döyüşləri zamanı şəhidlik zirvəsinə ucalmış, 2020-ci il noyabrın 16-da Gəncə Şəhidlər Xiyabanında dəfn olunmuşdur. Prezident cənab İlham Əliyevin sərəncamları ilə şəhid Tural İsmayılov "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Şəhidin atası Nürəddin İsmayılov, anası Nazilə İsmayılova ailələrinə göstərilən diqqət və qayğıya görə ölkə başçısı cənab İlham Əliyevə və Birinci vitse-prezident hörmətli Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildiriblər.

***

Noyabrın 18-də Daşkəsən Şəhidlər Xiyabanında keçirilmiş Vətən Müharibəsi şəhidləri kiçik çavuş Tağıyev Ramid Yaqub oğlunun və kiçik çavuş Tağıyev Asif Zakir oğlunun anım mərasimlərində Daşkəsən rayon İcra hakimiyyətinin başçısı Əhəd Abıyev, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, SHXÇDX-nin rayon bölməsinin rəisi, Şəhidlərin valideynləri, rayonun şəhid anaları, qazilər, sakinlər və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Əvvəlcə Şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, dualar oxunub, məzarlarına güllər düzülüb.

Daşkəsən rayon İcra hakimiyyətinin başçısı Əhəd Abıyev bildirib ki, bu gün fəxarətlə söylədiyimiz, qürurlandığımız Qarabağda tarixi Zəfərimizi Prezident, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevə, şəhidlərimizə, qazilərimizə, hərbçilərimizə borclu və minnətdarıq. O deyib ki, bu şanlı Zəfərdə payı olan Ramid və Asif kimi qəhrəman oğullarımızla hər bir daşkəsənli fəxr edir.

Əhəd Abıyev çıxışında Şəhidlərin həyat və döyüş yolundan danışıb. Qeyd edib ki, Tağıyev Ramid Yaqub oğlu 1994-cü il fevralın 25-də Yuxarı Daşkəsən qəsəbəsində andan olub. O, Kəlbəcərin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmiş, qəhrəmancasına vuruşmuş, şəxsi igidlik və şücaət göstərmişdir. Ramid Tağıyev 2020-ci oktyabrın 3-də Murovdağ döyüşləri zamanı şəhidlik zirvəsinə ucalmış, 2020-ci il noyabrın 18-də Daşkəsən rayonunun Şəhidlər Xiyabanında dəfn olunmuşdur. Prezident cənab İlham Əliyevin sərəncamlarına əsasən şəhid Ramid Tağıyev "Vətən uğrunda", "İgidliyə görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilib.

Tağıyev Asif Zakir oğlu 1985-ci il fevralın 23-də Daşkəsən rayon Quşçu kəndində andan olub. O, Kəlbəcərin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmiş, qəhrəmancasına vuruşmuş, şəxsi igidlik və şücaət göstərmişdir. Asif Tağıyev də 2020-ci oktyabrın 3-də Murovdağ döyüşləri zamanı şəhidlik zirvəsinə ucalmış, 2020-ci il noyabrın 18-də Daşkəsən Şəhidlər Xiyabanında dəfn olunmuşdur. Prezident cənab İlham Əliyevin müvafiq sərəncamlarına əsasən şəhid Asif Tağıyev "Vətən uğrunda", "İgidliyə görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilib.

Daha sonra şəhid Ramid Tağıyevin Yuxarı Daşkəsən qəsəbəsində Şəhidin adını əbədiləşdirən bulaq kompleksi istifadəyə verilib. Bulağın açılış lentini Əhəd Abıyevlə Şəhidin anası Zərniyar Tağıyeva kəsiblər.

Bulağın açılışında məktəblilərin ifasında Vətən qəhrəmanlarına həsr edilən şeirlər səsləndirilib.

Şəhid Ramid Tağıyevin anası Zərniyar Tağıyeva, şəhid Asif Tağıyevin anası Nəzakət Tağıyeva ailələrinə göstərilən diqqət və qayğıya görə ölkə başçısı cənab İlham Əliyevə və Birinci vitse-prezident hörmətli Mehriban xanım Əliyevaya minnətdarlıqları bildiriblər.

***

Noyabrın 24-də Daşkəsən Şəhidlər Xiyabanında keçirilmiş Vətən Müharibəsi şəhidləri çavuş Ələsgərov Pərviz Lətif oğlunun və əsgər Zeynalov Arzu Rövşən oğlunun anım mərasimlərində Daşkəsən rayon İcra hakimiyyətinin başçısı Əhəd Abıyev, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, SHXÇDX-nin rayon bölməsinin rəisi, Şəhidlərin valideynləri, rayonun şəhid anaları, qazilər, sakinlər və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Əvvəlcə Şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, dualar oxunub, məzarlarına güllər düzülüb.

Daşkəsən rayon İcra hakimiyyətinin başçısı Əhəd Abıyev şəhidlərin valideynlərinə başsağlığı verib, səbir diləyib. Əhəd Abıyev çıxışında Şəhidlərin həyat və döyüş yolundan danışıb. Qeyd edib ki, Ələsgərov Pərviz Lətif oğlu 1984-cü ildə Yuxarı Daşkəsən qəsəbəsində andan olub. O, Kəlbəcərin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmiş, qəhrəmancasına vuruşmuş, şəxsi igidlik və şücaət göstərmişdir. Pərviz Ələsgərov 2020-ci il oktyabrın 2-də Murovdağ döyüşləri zamanı şəhidlik zirvəsinə ucalmış, 2020-ci il noyabrın 24-də Daşkəsən rayonunun Şəhidlər Xiyabanında dəfn olunmuşdur. Prezident cənab İlham Əliyevin sərəncamlarına əsasən şəhid Pərviz Ələsgərov "Vətən uğrunda", "İgidliyə görə", "Döyüşlərdə fərqlənməyə görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilib.

Zeynalov Arzu Rövşən oğlu 1999-cu ildə Daşkəsən rayonunda anadan olub. O, Kəlbəcərin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmiş, qəhrəmancasına vuruşmuş, şəxsi igidlik və şücaət göstərmişdir. Əsgər Arzu Zeynalov 2020-ci il oktyabrın 2-də Murovdağ döyüşləri zamanı şəhidlik zirvəsinə ucalmış, 2020-ci il noyabrın 24-də Daşkəsən Şəhidlər Xiyabanında dəfn olunmuşdur. Prezident cənab İlham Əliyevin müvafiq sərəncamlarına əsasən şəhid Arzu Zeynalov "Vətən uğrunda", "İgidliyə görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilib.

Şəhid Pərviz Ələsgərovun atası Lətif Ələsgərov, anası Aybəniz Ələsgərova, şəhid Arzu Zeynalovun atası Rövşən Zeynalov, anası Bəsdi Zeynalova ailələrinə göstərilən diqqət və qayğıya görə ölkə başçısı cənab İlham Əliyevə və Birinci vitse-prezident hörmətli Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildiriblər.

DAŞKƏSƏNDƏ VƏTƏN MÜHARİBƏSİ ŞƏHİDLƏRİNİN DOĞUM GÜNLƏRİ QEYD EDİLİB

Avqustun 17-də İkinci Qarabağ müharibəsi şəhidi Verdiyev Röyal Qabil oğlunun ad günü Daşkəsən rayonunun Xoşbulaq kəndində Şəhidin valideynlərinin yaşadığı evdə keçirilib.

Anım günüdə Daşkəsən rayon İcra hakimiyyətinin başçısı Əhəd Abıyev, rayon prokuroru Maarif Hüseynov, SHXÇDX-nin rayon bölməsinin rəisi Mirqasım Abbasov, Şəhidin ailə üzvləri, rayonun şəhid anaları iştirak ediblər.

Daşkəsən rayon İcra hakimiyyətinin başçısı Əhəd Abıyev Şəhidin valideynləri ilə söhbət edib, şəhidlərimizin əbədi ehtirama layiq olduğunu bildirərək Vətən Müharibəsi iştirakçıları ilə bağlı möhtərəm Prezident cənab İlham Əliyevin və Birinci vitse-prezident hörmətli Mehriban xanım Əliyevanın ardıcıl mühüm tədbirlər gördüyünü diqqətə çatdırıb.

Əhəd Abıyev Şəhidin döyüş yolundan söhbət açıb. Bildirib ki, 1994-cü il təvəllüdlü əsgər Röyal Verdiyev Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərimizin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayıl, Qubadlı, Laçın rayonları istiqamətində gedən döyüşlərdə qəhrəmancasına savaşıb, şəhidlik zirvəsinə ucalıb. Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Prezident cənab İlham Əliyevin müvafiq sərəncamlarına əsasən Röyal Verdiyev "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Laçının azad olunmasına görə" medalları ilə təltif edilib.

Şəhid atası Qabil Verdiyev, anası Sevda Verdiyeva, digər şəhid anaları Aybəniz Abdullayeva, Nazilə Bağırova, Brilyant Əsgərova şəhid ailələrinə göstərilən diqqət və qayğıdan razı qaldıqlarını ifadə etmiş və Prezident cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya öz minnətdarlıqlarını bildirmişlər.

Daha sonra Röyal Verdiyevin ad günü Daşkəsən Şəhidlər Xiyabanında məzarı başında rayon İcra hakimiyyətinin başçısı Əhəd Abıyevin, Şəhidin yaxınlarının və ictimaiyyət nümayəndələrinin iştirakı ilə qeyd olunub.

***

Avqustun 21-də Vətən Müharibəsi şəhidi baş əsgər Vəkilov Elməddin Nizami oğlunun doğum günü Daşkəsən Şəhidlər Xiyabanında məzarı qarşısında qeyd olunub.

Şəhidimizin doğum günündə Daşkəsən rayon İcra hakimiyyətinin məsul işçiləri, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, Şəhidin ailə üzvləri, rayonun şəhid valideynləri, qazilər və sakinlər iştirak ediblər.

Daşkəsən rayon İcra hakimiyyəti başçısının müavini Namiq Süleymanov rayon İcra hakimiyyətinin başçısı Əhəd Abıyevin adından Şəhidin ailəsinə bir daha da başsağlığı verib, Allahdan rəhmət diləyib. Namiq Süleymanov Elməddin Vəkilovun həyat və döyüş yolundan danışıb. O bildirib ki, 44 günlük Vətən Müharibəsinin qəhrəmanlarından biri Elməddin Vəkilov 1988-ci il avqustun 21-də Daşkəsəndə anadan olub. Azərbaycan Ordusunun baş əsgəri Elməddin Vəkilov Vətən Müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə qəhrəmancasına vuruşub, şəxsi igidlik və şücaət göstərib, onlarla düşməni məhv edib. O 2020-ci il sentyabrın 30-da Murovdağ döyüşləri zamanı itkin düşüb. Elməddin Vəkilovun nəşi 2021-ci il mayın 7-də tapılıb və mayın 8-də Daşkəsən Şəhidlər Xiyabanında torpağa tapşırılıb. Prezident cənab İlham Əliyevin sərəncamları ilə şəhid Elməddin Vəkilov "Vətən uğrunda" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif olunub.

Şəhidin anası Nərgiz Vəkilova ailəsinə göstərilən diqqət və qayğıya görə Prezident cənab İlham Əliyevə və Birinci vitse-prezident hörmətli Mehriban xanım Əliyevaya minnətdarlığını bildirib.

***

Avqustun 29-da Vətən Müharibəsi şəhidləri – gizir Cəfərli Orxan Etibar oğlunun və əsgər İsmayılov Rüstəm Üzeyir oğlunun doğum günləri keçirilib.

Daşkəsən rayon İcra hakimiyyətinin işçilərinin, Müdafiə Nazirliyinin rəsmilərinin, Şəhidlərin ailə üzvlərinin, hərbçilərin, rayonun şəhid valideynlərinin və ictimaiyyət nümayəndələrinin iştirak etdiyi mərasimdə əvvəlcə şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni ifa olunub.

Müdafiə Nazirliyinin rəsmisi polkovnik Abdulla Qurbani Vətən Müharibəsinin tarixi əhəmiyyətindən, bu müharibədə xalq-ordu birliyindən, təcavüzkar Ermənistanın məğlubiyyətə düçar edilməsində Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin müstəsna sərkərdəlik məharətindən, Azərbaycan Ordusunun Zəfər yürüşündən, əsgər və zabitlərimizin öz qanları və canları ilə hərb tariximizə şanlı səhifələr yazdıqlarından, həmçinin müqəddəs bayrağımızın bu gün də

etibarlı əllərdə, dəmir yumruğun isə yerində olduğundan iftixar hissi ilə danışıb.

Daşkəsən rayon İcra hakimiyyəti başçısının müavini Vüqar Məmmədov çıxış edərək tədbir iştirakçılarını rayon İcra hakimiyyətinin başçısı Əhəd Abıyevin adından salamlayıb, bu kimi tədbirlərin gənclərin vətənpərvərlik tərbiyəsində mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb. Vüqar Məmmədov şəhid Orxan Cəfərlinin və şəhid Rüstəm İsmayılovun şərəfli ömür və döyüş yollarından söhbət açıb, Şəhidlərin valideynlərinə başsağlığı verərək minnətdarlıq bildirib.

Sonra hərbi orkestrin sədaları altında şəhid məzarları ziyarət edilərək çələng və gül dəstələri qoyulub.

***

Sentyabrın 13-də Vətən Müharibəsi şəhidi Bəxtiyarov Orxan Sərvər oğlunun doğum günü Daşkəsən Şəhidlər Xiyabanında Şəhidin məzarı yanında qeyd olunub.

Anım günüdə Daşkəsən rayon İcra hakimiyyətinin başçısı Əhəd Abıyev, SHXÇDX-nin rayon bölməsinin rəisi Mirqasım Abbasov, DTX-nin rayon şöbəsinin rəisi Natiq Musayev, rayon Polis Şöbəsinin rəisi Seymur Əfəndiyev, şəhidin ailə üzvləri, rayonun şəhid anaları və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Əvvəlcə Şəhidin məzarına gül dəstələri düzülüb, torpaqlarımızın azadlığı uğurunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Rayon İcra hakimiyyətinin başçısı Əhəd Abıyev şəhidin ailəsinə baş sağlığı verərək nitq söyləyib. O deyib:

- Möhtərəm Prezident, Müzəffər Ali Baş komandan cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin əsas istiqamətlərindən birini müharibə veteranlarının, əlillərinin, şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi, problemlərinin vaxtında həllinə nail olunması təşkil edir. Daşkəsəndə də şəhid ailələri və qazilərə diqqət və qayğı göstərilməsi yüksək səviyyədə təşkil olunur.

Həmin ənənənin davamı olaraq bu gün daşkəsənli şəhid əsgər Bəxtiyarov Orxan Sərvər oğlunun doğum günü münasibətilə onun məzarı başına toplaşmışıq.

Bildiyiniz kimi ötən il sentyabrın 27-dən noyabrın 10-dək davam edən 44 günlük Vətən Müharibəsində möhtərəm Prezident, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında yenilməz Ordumuz torpaqlarımızı erməni işğalından azad etdi, qalib Azərbaycan xalqı öz vətənpərvərliyini, əzmini bütün dünyaya tam aydınlığı ilə göstərdi.

Bu gün Daşkəsəndə 30 yaşını qeyd etdiyimiz Orxan Bəxtiyarov 1991-ci il sentyabrın 13-də Daşkəsən şəhərində anadan olub. Onun iki azyaşlı övladı yadigar qalıb.

Azərbaycan Ordusunun əsgəri Orxan Bəxtiyarov Vətən Müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə

savaşıb. O, noyabrın 7-də Şuşa döyüşlərində qəhrəmancasına şəhid olub. Şəhidimiz Orxan Bəxtiyarov göstərdiyi igidliyə və vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Prezident cənab İlham Əliyevin sərəncamları ilə "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.

Daha sonra Şəhidimizin təhsil aldığı Daşkəsən şəhər 1 saylı İ. Nəsimi adına tam orta məktəbin şagirdləri şəhidlərə həsr edilmiş şeirlər oxuyublar.

Şəhidin anası Bəxtiyarova Gülbəs Həsənqulu qızı ailəsinə göstərilən diqqət və qayğıya görə ölkə başçısı cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlığını bildirib.

***

Sentyabrın 16-da daşkəsənli şəhid kəşfiyyatçı əsgər Məmmədov Elnur İsrafil oğlunun 32-ci doğum günündə Daşkəsən rayon İcra hakimiyyətinin əməkdaşları şəhidin ailə üzvləri və ictimaiyyət nümayəndələri ilə birlikdə onun Gəncə Şəhidlər Xiyabanında məzarını ziyarət

etmiş, xatirəsini anmışlar.

Daşkəsən rayon İcra hakimiyyətinin məsul işçisi Elmar Əliyev şəhidin ailə üzvlərinə Daşkəsən rayon İcra hakimiyyətinin başçısı Əhəd Abıyevin və bütün Daşkəsən ictimaiyyətinin başsağlığını çatdırıqdan sonra Elnur Məmmədovun həyatından və keçdiyi şərəfli döyüş yolundan söhbət açmışdır. O demişdir:

- Elnur Məmmədov 16 sentyabr 1989-cu ildə Daşkəsən rayonunda anadan olmuşdur. Uşaqlıqdan Vətənə, torpağa, elə-obaya güclü bağlılıq hissi böyüdüyündə onu hərbçi etdi.

2020-ci il 27 sentyabr səhər saatlarında Ermənistan Silahlı Qüvvələri genişmiqyaslı təxribat törədərək cəbhəboyu zonada yerləşən Azərbaycan Ordusunun mövqelərini və yaşayış məntəqələrini iriçaplı silahlar, minaatanlar və artilleriya qurğularından intensiv atəşə tutması nəticəsində, bir mənalı olaraq, İkinci Qarabağ müharibəsi başladı. Vətəninin bu dar günlərində ürəyi dözməyən, 2 əkiz qız atası olan Elnur sevdikləri ilə vidalaşdı. Çünki Vətənin onun kimi mərd oğullara ehtiyacı olduğunu bilirdi. Uşaqları Sevgi və Sevincin gözlərindən öpüb, anası Maisə xanımdan və atası İsrafil kişidən halallıq alan Elnur Vətənin keşiyinə yollandı. Bu şanlı qələbədə onun da payı olmalı idi və oldu da. 2 oktyabr 2020-ci ildə Daşkəsən-Kəlbəcər sərhədində qəhrəmanlıq göstərərək şəhadətə qovuşdu.

Kəşfiyyatçı Elnur Məmmədov İkinci Qarabağ müharibəsində yüksək qəhrəmanlıq nümunəsi göstərərək iştirak etmişdir. Müxtəlif mövqelərdə döyüşən Elnur oktyabrın 1-i Daşkəsən rayon sərhədindən Kəlbəcər rayonuna keçmişdir. Komandiri və döyüş yoldaşları ilə birlikdə düşmənin iki postunu dağıtmışdır. Döyüş gedən zamanı içərisində erməni zabitləri olan UAZ markalı maşınının yaxınlaşdığını görən komandiri, Elnura başını qaldırmamasını demiş, lakin Elnur sinəsini düşmənə sipər edərək UAZ maşınını partlatmış, özü isə düşmənin snayper gülləsinə tuş gəlib qarın nahiyəsindən yaralanmışdır. Qısa müddət yerdə qaldıqdan sonra özünü toparlamış və döyüş yoldaşlarına "siz geri çəkilin, mən gedərəm" deyərək düşmənə hücum etmiş, ancaq çox təəssüf ki, snayperlə baş nahiyəsindən vurularaq şəhidlik mərtəbəsinə ucalmışdır.

Komandiri onun nəşini çıxara bilmədiyi üçün düşmənin əlinə keçməsin deyə, iki qayanın arasında gizlətmişdir. Elnurun nəşi 49 gün neytralda qalmışdır. 50-ci günə keçən gecə komandiri və döyüş yoldaşları onun nəşini gizlətdikləri yerdən götürərək ailəsinə təhvil vermişlər. Elnur Məmmədov böyük izdihamla Gəncə Şəhidlər Xiyabanında dəfn edilmişdir. Şəhidimiz Elnur Məmmədov göstərdiyi igidliyə, fədakarlığa və vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Prezident cənab İlham Əliyevin sərəncamları ilə "Vətən uğrunda", "İgidliyə görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

Çıxışlarda şəhidin 31 illik şərəfli həyat yolundan bəhs olunmuş, xatirələr dilə gətirilmiş, ötən il sentyabrın 27-dən başlanan və Prezident, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə başa çatan Qələbənin tarixi əhəmiyyətindən danışılmışdır.

Şəhidin atası İsrafil Məmmədov və anası Maisə Pirverdiyeva ailələrinə göstərilən diqqət və qayğıya görə ölkə başçısı cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıq bildirmişlər.

***

Sentyabrın 29-da Daşkəsən rayon İcra hakimiyyətinin başçısı Əhəd Abıyev rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri ilə birgə rayonun Zağalı kəndində Vətən Müharibəsi şəhid Cabbarov Muraz İlham oğlunun xatirəsinə inşa edilən bulağın açılışında iştirak ediblər.

Bulaq Daşkəsən rayon İcra hakimiyyətinin dəstəyi ilə şəhidin atası İlham Cabbarov tərəfindən tikilib.

Əvvəlcə bulağa gül dəstələri düzülüb və Şəhidin xatirəsi yad edilib.

Əhəd Abıyev açılış mərasimdə çıxış edərək deyib ki, bu gün Prezident cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva şəhid ailələrinə, qazilərimizə böyük diqqət və qayğı göstərirlər. Vətən Müharibəsində Daşkəsən rayonundan da yüzlərlə gənc könüllü olaraq ordu sıralarına qoşulmuş, qəhrəmancasına vuruşmuşlar. Onlardan 32 nəfər müqəddəs şəhidlik zirvəsinə ucalmışdır. Belə cəsur döyüşçülərimizdən biri də Vətən Müharibəsində onlarla düşməni məhv edərək qəhrəmancasına şəhid olmuş Daşkəsən rayon Zağalı kənd sakini Cabbarov Muraz İlham oğludur. Muraz Cabbarov Xüsusi Təyinatlı Qüvvələrin əsgəri olub. Murazın əsgəri xidməti dövründə Vətən Müharibəsi başlayıb. O, Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Prezident cənab İlham Əliyevin sərəncamları ilə Muraz Cabbarov "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif olunub. Cəsur, qəhrəman Muraz Cabbarovla bütün daşkəsənlilər fəxr edir, qürur duyur.

Açılış mərasimdə nitq söyləyən şəhid ata və anaları, Vətən müharibəsi qaziləri Muraz Cabbarovun qısa şərəfli həyat yolundan, onun Vətən Müharibəsində göstərdiyi igidliklərindən söz açıb, şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə Prezident cənab İlham Əliyevə və Birinci vitse-prezident hörmətli Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildiriblər.

***

Sentyabrın 29-da Vətən Müharibəsi şəhid Şıxıyev Orxan Raqif oğlunun da doğum günü rayonun Şəhidlər Xiyabanında qeyd edilib və Dəstəfur kəndində xatirəsinə inşa edilən bulağın açılış mərasimi keçirilib.

Bulağın açılış mərasimində Daşkəsən rayon İcra hakimiyyətinin məsul əməkdaşları, hüquq-mühafizə orqanlarının rəhbərləri, şəhid ailələri, qazilər, Şəhidin doğmaları və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Çıxışlarda İkinci Qarabağ müharibəsində Azərbaycan Ordusunun qəhrəmanlığından, 30 ildən artıq bir müddətdə işğal altında qalan torpaqlarımızın azad edilməsi ilə nəticələnən şanlı Zəfərdən, Orxan Şıxıyevin döyüş və ömür yolundan danışılıb.

Şəhidin atası Raqif Şıxıyev, anası Sevda Şıxıyeva ailələrinə göstərilən diqqət və qayğıya görə ölkə başçısı cənab İlham Əliyevə və Birinci vitse-prezident hörmətli Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildiriblər.

***

Oktyabrın 13-də Daşkəsən rayon İcra hakimiyyətinin başçısı Əhəd Abıyev və rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, ictimaiyyət nümayəndələri, şəhid valideynləri, qazilər Vətən Müharibəsi şəhidi gizir İsmayılov Novruz Nüreddin oğlunun ad gününü Gəncə şəhərində Şəhidin valideynlərinin yaşadığı evdə keçiriblər.

Əvvəlcə Şəhidin xatirəsinə inşa edilən bulağın açılışı olub.

Əhəd Abıyev bulağın açılışında şəhid gizir Novruz İsmayılovun döyüş yolundan söhbət açıb. Bildirib ki, Novruz İsmayılov Ermənistan işğalı altında olan ərazilərimizin azad edilməsi üçün başlanan Vətən Müharibəsi zamanı Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmancasına savaşaraq, müqəddəs şəhidlik zirvəsinə ucalıb. Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Prezident cənab İlham Əliyevin müvafiq sərəncamlarına əsasən Novruz İsmayılov "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.

Əhəd Abıyev Şəhidin atası Nüreddin İsmayılova da baş çəkib, onun səhhəti, müalicəsinin gedişi ilə maraqlanıb və maddi yardım göstərib.

Şəhidin atası Nüreddin İsmayılov, anası Qəmilə İsmayılova ailələrinə göstərilən diqqət və qayğıdan razı qaldıqlarını və buna görə Prezident cənab İlham Əliyevə və Birinci vitse-prezident hörmətli Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildiriblər.

***

Noyabrın 13-də Daşkəsən rayon Quşçu kəndi sakini, İkinci Qarabağ müharibəsində şəhidlik zirvəsinə yüksələn çavuş Sadıqov Rüfət Vaqif oğlunun ad günü Şəhidin Daşkəsən Şəhidlər Xiyabanında məzarı önündə Daşkəsən rayon İcra hakimiyyəti başçısı aparatının işçiləri, rayonun hüquq-mühafizə orqanları rəhbərləri, Şəhidin ailə üzvləri, kənd sakinləri, rayonunun şəhid anaları, qazilər və ictimaiyyət nümayəndələri ilə birlikdə qeyd olunub.

Əvvəlcə Şəhidin xatirəsi yad edilib, məzarı üzərinə gül dəstələri düzülüb, dualar oxunub.

Rayon İcra hakimiyyəti başçısının müavini Vüqar Məmmədov Şəhidin ailəsinə Daşkəsən rayon İcra hakimiyyətinin başçısı Əhəd Abıyevin və rayon ictimaiyyətinin adından başsağlığı verərək, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında 44 günlük Vətən Müharibəsində əldə olunan tarixi zəfərdən, Azərbaycan Ordusunun qüdrətindən və şəhid Rüfət Sadıqovun həyat və döyüş yolundan danışıb.

Sonra SHXÇDX-nin Daşkəsən rayon bölməsi tərəfindən Şəhidin "Vətən uğrunda" medalı anası Tərifə Ağacanova təqdim olunub.

Sadıqov Rüfət Vaqif oğlu 13 noyabr 1995-ci ildə Daşkəsən rayonu Quşçu kəndində doğulub. 2013-cü ildə Quşçu kənd Ə.İsmayılov adına tam orta məktəbi bitirib. 2016-cı ildə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi N hərbi hissəsində xidmətə başlayıb. Xidmət müddətində dəfələrlə fəxri fərmanlarla təltif olunub. Rüfət Sadıqov Vətən Müharibəsində 4 oktyabr 2020-ci ildə Kəlbəcər uğrunda gedən döyüşlərdə şəhadətə yüksəlib. Nəşi tapılaraq 19 dekabr 2020-ci ildə Daşkəsən Şəhidlər Xiyabanında dəfn edilib. Prezident cənab İlham Əliyevin sərəncamları ilə Şəhid Rüfət Sadıqov hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün "Vətən uğrunda" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilib.

Şəhidin anası Tərifə Ağacanova ailəsinə göstərilən diqqət və qayğıya görə ölkə başçısı cənab İlham Əliyevə və Birinci vitse-prezident hörmətli Mehriban xanım Əliyevaya minnətdarlığını bildirib.

DAŞKƏSƏNDƏ ŞƏHİD GENERAL POLAD HƏŞİMOVUN XATİRƏSİNƏ ƏBƏDİLƏŞDİRİLƏN BULAQLARI ŞƏHİDİN ANASI SƏMAYƏ XANIM HƏŞİMOVA ZİYARƏT EDİB, ŞƏHİD ANALARI VƏ QAZİLƏRLƏ GÖRÜŞÜB



Daşkəsən rayon İcra hakimiyyətinin başçısı Əhəd Abıyev və Daşkəsəndə yerləşən "N" hərbi hissənin komandiri Polad Həşimov. 2013-cü il, Daşkəsən rayonu, Xoşbulaq kəndi.

Noyabrın 20-də Azərbaycanın Milli Qəhrəmanı, şəhid general-mayor Polad Həşimovun anası Səmayə xanım Həşimova Daşkəsənə gəlib. Onu Daşkəsən rayon İcra hakimiyyətinin məsul əməkdaşı Elmar Əliyev, tanınmış aparıcı Lalə Azərtaş, rayonun şəhid anaları, qazilər və sakinlər müşayiət ediblər.

Səmayə xanım Həşimova əvvəlcə Yuxarı Daşkəsən qəsəbəsində tikilən bulağı ziyarət edib, Polad Həşimovun əsgəri olmuş Vətən Müharibəsi şəhidi Ramid Tağıyevin anası Zərniyar Tağıyeva ilə söhbət edib.

Daha sonra Səmayə xanım Daşkəsənin Xoşbulaq kəndində şəhid general Polad Həşimovun 6 il yaşadığı evdə olub və Xoşbulaq kəndində inşa edilən bulağı ziyarət edib, şəhid anaları və qazilərlə görüşüb.

DAŞKƏSƏNDƏ YENİ AZƏRBAYCAN PARTİYASININ YARADILMASININ 29-CU İLDÖNÜMÜ İLƏ ƏLAQƏDAR TƏDBİR KEÇİRİLİB

Noyabrın 18-də Yeni Azərbaycan Partiyasının (YAP) təsis edilməsinin 29-cu ildönümü münasibətilə YAP Daşkəsən rayon təşkilatı Daşkəsən rayon İcra hakimiyyəti ilə birgə tədbir keçirib.

Tədbir iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin Daşkəsən şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edib, gül düzüblər.

Yığıncaqda ulu öndər Heydər Əliyevin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Daşkəsən rayon İcra hakimiyyətinin başçısı Əhəd Abıyev tədbiri giriş sözü ilə açaraq deyib:

- Tarixi zərurətdən yaranan Yeni Azərbaycan Partiyası Ölkəmizin ictimai-siyasi həyatında aparıcı rol oynayan, yarandığı gündən xalqın partiyasına çevrilən, ulu öndər Heydər Əliyevin yaratdığı Yeni Azərbaycan Partiyasının yaranmasının 29-cu ildönümünü, eyni zamanda Qarabağımızın 30 ildən sonra 44 gün ərzində Müzəffər Ali Baş Komandanımız, Prezident, Yeni Azərbaycan Partiyasının yaradıcısı, Azərbaycan xalqının xilaskarı ulu öndərimiz Heydər Əliyev demişdir: "Yeni Azərbaycan Partiyası dünənin, bu günün, gələcəyin partiyasıdır".

Yeni Azərbaycan Partiyasının yeddinci qurultayının bu il martın 5-də keçirilməsi də böyük tarixi hadisə idi. Çünki bu qurultay Yeni Azərbaycan Partiyasının daim təkmilləşməyə və yeniləşməyə açıq olduğunu bir daha əyani şəkildə sübut etdi. Prezident, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyev martın 5-də Partiyanın keçirilən yeddinci qurultayında çıxışı zamanı bir çox məsələlərə toxunaraq demişdir: "Bu illər ölkəmiz üçün, bölgəmiz üçün həlledici illər olmuşdur... Təbii ki, onların arasında ən önəmlisi ərazi bütövlüyümüzün bərpa edilməsi, Vətən müharibəsində parlaq Qələbənin qazanılmasıdır. Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi, tarixi ədaləti bərpa etdi, işğalçıları əzəli torpaqlarımızdan qovdu və beləliklə, tarixi ədalət bərpa olundu. Bizim şanlı Qələbəmiz qürur mənbəyimizdir".

Vətən Müharibəsində 44 gün ərzində tariximizin Zəfər Salnaməsi yazıldı, Qarabağ Azərbaycanımıza qovuşdu. Məhz bu Böyük Qələbə Prezident cənab İlham Əliyevin bütün sahələrdə sözünə, vədinə sadiq dövlət başçısı kimi dünyada təsdiqlənməsinin reallığıdır.

Prezident cənab İlham Əliyev 2003-cü ildə keçirilən andiçmə mərasimində demişdir: "Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün, ən başlıcası, ölkədə ümummilli lider Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən, mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm".

Bu gün Prezident cənab İlham Əliyevin sədrliyi ilə Yeni Azərbaycan Partiyası Qafqazda ən güclü siyasi partiya olmaqla, Azərbaycan xalqının milli maraqlarına xidmət göstərir. Yarım milyondan artıq azərbaycanlını öz ətrafında birləşdirən YAP əslində hər bir azərbaycanlının partiyasıdır. Ölkəmizin dünyada və beynəlxalq aləmdə artan nüfuzu, respublikamızın dinamik inkişafı, əhalimizin rifahı, ən əsası isə siyasi-iqtisadi sabitlik ümummilli lider Heydər Əliyevin siyasi kursuna köklənmiş Prezident cənab İlham Əliyevin yorulmaz fəaliyyətinin nəticəsidir.

Ölkəmizdəki daxili sabitliyə, aparılan uğurlu xarici siyasətə, respublikamızın hərtərəfli sosial-iqtisadi və mədəni inkişafında misilsiz xidmətlərinə, zəngin və möhtəşəm dövlətçilik fəaliyyətinə görə möhtərəm Prezidentimiz İlham Əliyev cənablarına və ölkəmizin Birinci vitse-prezidenti Yeni Azərbaycan Partiyası Sədrinin birinci müavini Mehriban xanım Əliyevaya bütün daşkəsənlilər adından dərin təşəkkürümüzü və minnətdarlığımızı bildiririk.

YAP Daşkəsən rayon təşkilatı da fəaliyyətini partiya rəhbərliyi tərəfindən qarşıya qoyulmuş bütün vəzifələrin yerinə yetirilməsi üçün uğurla davam etdirir. Hazırda təşkilatın üzvlərinin sayı 4720 nəfərə çatıb və rayonumuzda YAP-a rəqib ola biləcək alternativ bir partiya yoxdur. Bunun səbəbi daşkəsənlilərin ümummilli lider Heydər Əliyev siyasətinə daim göstərdikləri sədaqətdən və sevgidən irəli gəlir. YAP-ın bütün uğurlarının və qələbəsinin arxasında xalqın ulu öndər Heydər Əliyev siyasətinə və onun ən layiqli davamçısı möhtərəm Prezidentimiz, YAP-ın sədri cənab İlham Əliyevə olan sarsılmaz inamı və bu inamdan doğan dəstəyi dayanır.

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının qərarı ilə Azərbaycan Prezidenti cənab İlham Əliyev Türk Dünyasının Ali Ordeni ilə təltif olunub. Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən təqdim olunan Türk Dünyasının Ali Ordeni dövlət başçımızın yüksək fədakarlığına, misilsiz xidmətlərinə verilən qiymətdir. Bu münasibətlə dövlət başçımızı daşkəsənlilər adından təbrik edir və ona uğurlar arzulayırıq.

Tezliklə Zəngəzur dəhlizi bizi yeni Turan ellərinə aparacaqdır. Zəngəzur koridoru həm Türk dünyasını, həm də Avropanı birləşdirəcək layihədir.

Çıxışımı Bəxtiyar Vahabzadənin misraları ilə bitirmək istəyirəm:

Bir ananın iki oğlu,
Bir ağacın iki qolu,
O da ulu, bu da ulu,
Azərbaycan, Türkiyə.
Dinimiz bir, dilimiz bir,
Ayımız bir, ilimiz bir,
Eşqimiz bir, yolumuz bir,
Azərbaycan, Türkiyə.

Mən bütün daşkəsənlilər adından başda Prezident, Yeni Azərbaycan Partiyasının sədri cənab İlham Əliyev olmaqla Partiyamızın bütün üzvlərini YAP-ın yaradılmasının 29-cu ildönümü münasibətilə təbrik edirəm, Partiyanın gələcək fəaliyyətinə yeni uğurlar, qələbələr arzulayıram.

Yeni Azərbaycan Partiyasının sədri çox hörmətli İlham Heydər oğlu Əliyevə eşq olsun!

Yaşasın Ümummilli Liderimizin əsasını qoyduğu Yeni Azərbaycan Partiyası.

Tədbir YAP Daşkəsən rayon təşkilatı üzvlərinin çıxışları ilə davam edib.

YENİ AZƏRBAYCAN PARTİYASI DAŞKƏSƏN RAYON TƏŞKİLATININ X HESABAT KONFRANSI KEÇİRİLİB

Avqustun 6-da YAP Daşkəsən rayon təşkilatının videoformatda X hesabat konfransı keçirilib.

Konfrans iştirakçıları əvvəlcə Daşkəsən şəhərinin mərkəzində ulu öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzüb, xatirəsini yad ediblər.

Ulu öndər Heydər Əliyevin abidəsi önündə bir qrup gənclə görüş keçirilib. Həmin gənc YAP fəallarına Partiyanın üzvlük vəsiqələri təqdim olunub. Vəsiqə alan gənclər dövlətə sədaqətli olduqlarını və ölkə Prezidentinin apardığı siyasəti dəstəklədiklərini bəyan ediblər.

Videoformatda keçirilən konfransda öncə YAP-ın yaradıcısı, ulu öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olan Vətən oğullarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Konfransın gündəliyi təsdiq edildikdən sonra YAP Daşkəsən rayon təşkilatının sədri Meydanəli Yolçuyev hesabat məruzəsi ilə çıxış edib. M.Yolçuyev bildirib ki, hazırda rayon təşkilatı 70 ərazi ilk partiya təşkilatında 4700-dən çox partiya üzvünü birləşdirir. Onlardan 2000 nəfəri qadın, 1000 nəfəri isə gənclərdir. IX konfransdan keçən müddət ərzində 427 nəfər partiya sıralarına qəbul olunub.

M.Yolçuyev hesabat dövrü ərzində keçirilən tədbirlərdən bəhs edərək bildirib ki, məqsəd hər bir tarixi hadisənin əhəmiyyətini bugünkü və gələcək nəsillərə çatdırmaqdır. Müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, ulu öndər Heydər Əliyevin düşünülmüş və bu günümüz üçün müəyyənləşdirilən siyasətinin təməlində azərbaycançılıq ideologiyası dayanır. Kimliyindən, harada yaşamasından, siyasi mənsubiyyətindən asılı olmayaraq, hər kəs Vətəninə, torpağına bağlı olmalıdır. Necə ki xalqımız 44 günlük Vətən müharibəsi dövründə dünyaya dəmir yumruq kimi birliyimizi, həmrəyliyimizi nümayiş etdirdi. Bu gün həmin birlik tarixi sahibinə qovuşan Qarabağımızda bərpa və quruculuq işlərində özünü nümayiş etdirir.

Sonra YAP Daşkəsən rayon təşkilatının Nəzarət-Təftiş Qrupunun sədri Yaşar Məhərrəmovun hesabatı dinlənilib.

Müzakirələr zamanı YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Elşad Mirbəşiroğlu, rayon təşkilatının sədr müavini Namiq Süleymanov, rayon təşkilatı Qadınlar Şurasının sədri Rəna Aslanova, Daşkəsən rayon İcra hakimiyyəti aparatı ilk partiya təşkilatının sədri Malik Ələsgərov, YAP Daşkəsən rayon təşkilatı Gənclər Birliyinin İdarə Heyətinin üzvü Elşən Alıyev çıxış edərək təşkilatın hesabat dövrü ərzində gördüyü işlərdən bəhs ediblər.

Konfransda çıxış edən YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin müdiri Əhliman Tağıyev bildirib ki, xalqımız ulu öndər Heydər Əliyevin yaradıcısı olduğu, son 18 ildə cənab İlham Əliyevin rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyasının uğurlu gələcəyinə böyük inam və etimad göstərir. Yeni Azərbaycan Partiyası Azərbaycanın, ümumilikdə regionun güclü siyasi təşkilatı kimi inkişaf etməklə bərabər, dünyanın qabaqcıl ölkələrinin aparıcı siyasi partiyalarının təcrübəsini də tətbiq edir. Fəaliyyətində beynəlxalq əməkdaşlığa xüsusi önəm verən Yeni Azərbaycan Partiyası bir çox ölkələrin hakim partiyaları ilə əməkdaşlıq edir.

Ə.Tağıyev ölkəmizin uğurlarında Yeni Azərbaycan Partiyasının böyük rolu olduğunu önə çəkərək, YAP Daşkəsən rayon təşkilatının gələcək fəaliyyətinə uğurlar arzulayıb.

Konfransda YAP Daşkəsən rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib.

DAŞKƏSƏNİN DƏMİR FİLİZİ YATAQLARININ İŞLƏNMƏSİNƏ DAİR İCTİMAİ MÜZAKİRƏ KEÇİRİLİB

Avqustun 25-də "Daşkəsən Dəmir Filiz" MMC Daşkəsən rayon İcra hakimiyyəti ilə birgə "Daşkəsənin dəmir filizi yataqlarında üstaçma, dəmir filizinin hasilatı, nəqli və anbarlaşdırılması işlərində ətraf mühitə təsirin qiymətləndirilməsi Sənədi"nin layihəsinə əsasən, iş həcminin əhatə dairəsinin müəyyən edilməsi məqsədilə məsləhətləşmə görüşü təşkil edib.

Daşkəsən rayon İcra hakimiyyətində keçirilən görüşdə Daşkəsən rayon İcra hakimiyyətinin başçısı Əhəd Abıyev, "Daşkəsən Dəmir Filiz" MMC-nin məsul işçiləri, 10 saylı Regional Ekologiya və Təbii Sərvətlər İdarəsinin əməkdaşları, Azərbaycan Texnologiya Universitetinin və Gəncə Dövlət Universitetinin elmi işçiləri, inzibati ərazi dairəsi üzrə nümayəndələr, bələdiyyə və vətəndaş cəmiyyəti institutlarının təmsilçiləri iştirak ediblər.

Əhəd Abıyev görüşü giriş nitqi ilə açıb. O, çıxışında deyib:

- Bildiyiniz kimi, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə 2020-ci il sentyabrın 27-də başlanmış 44 günlük Vətən müharibəsi Azərbaycan xalqının tarixi Qələbəsi ilə başa çatmış, müzəffər ordumuz erməni təcavüzünə məruz qalmış ərazilərimizi işğaldan azad etmişdir. Beləliklə, dünya hərb tarixinin ən şanlı səhifələrindən birini yazan Azərbaycan ordusu düşmənin təkcə hərb maşınını deyil, həm də erməni iqtisadiyyatını tar-mar elədi. Hansı ki mütəxəssislərin hesablamasına görə Ermənistan iqtisadi cəhətdən aldığı bu zərbəni heç 30-35 ilə də bərpa edə bilməz.

Bu gün Azərbaycan, sözün əsl mənasında, tam müstəqil siyasət yürüdən ölkədir. Ulu öndər Heydər Əliyev irsinin layiqli davamçısı Prezident cənab İlham Əliyevin müəllifliyi ilə müasir Azərbaycan tarixinin şanlı səhifələri yazılır. Ötən illərdə uğurla həyata keçirilən sosial-iqtisadi islahatların nəticəsi olaraq respublikamız dünyanın sürətli inkişaf yolunda irəliləyən, özünəməxsus milli iqtisadi inkişaf modelini yaradan qalib dövlət kimi tanınır.

Respublikamızın iqtisadi inkişafı son illərdə keyfiyyətcə yeni mərhələyə qədəm qoymuşdur. Belə ki, yerli istehsalatın inkişafı, bunun üçün bütün mövcud resurslardan, o cümlədən Daşkəsəndəki filiz yataqlarından səmərəli istifadə edilməsi cənab Prezidentin diqqət mərkəzindədir.

İyulun 22-də möhtərəm Prezidentimiz cənab İlham Əliyev Daşkəsən rayonuna səfəri zamanı Daşkəsən bəyanatında demişdir: "Daşkəsənin ənənəvi sahəsi olan dəmir filizi yataqlarının işlənməsi ilə bağlı konkret planlar var".

Bu gün biz "AzerGold" QSC-nin Daşkəsən rayonunda da ölkə iqtisadiyyatına gəlir gətirməsi, o cümlədən Daşkəsən rayonu ərazisində mövcud olan dəmir filizi yataqlarının işlənməsi və istismarı üzrə iş proqramı çərçivəsində yataqlarda üstaçma və dəmir filizinin çıxarılması və nəqli işlərinin ətraf mühitə təsirinin qiymətləndirilməsi sənədlərinin layihəsinə əsasən məsləhətləşmə görüşünün keçirilməsi üçün toplaşmışıq. Məlumat üçün bildirirəm ki, Daşkəsən rayonu 8 avqust 1930-cu ildə Dəstəfur rayonu adı ilə yaradılıb. Daşkəsən Dağ-Mədən Filizsaflaşdırma Kombinatı 1954-cü ildən fəaliyyətə başlamış və onun bazasında da Daşkəsən şəhəri yaranmışdır.

Vaxtilə illik ilk istehsal gücü 1 milyon ton dəmir filizi olan həmin müəssisədə 2 min nəfərdən çox işçi çalışmışdır. "Daşkəsən dəmir filizi yatağının istismara verilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 6 avqust 2020-ci il tarixli Sərəncamına əsasən Daşkəsən dəmir filizi yatağının istismara verilməsi ilə əlaqədar ilkin qiymətləndirmə sənədinin hazırlanması, eyni zamanda cənab Prezidentin 1 sentyabr 2020-ci il tarixli Sərəncamı ilə ölkə ərazisində dəmir filizi yataqlarının öyrənilməsi, tədqiqi, kəşfiyyatı, işlənilməsi və idarə olunması, maddi texniki bazasının müasirləşdirilməsi və ondan səmərəli istifadə edilməsi "AzerGold" QSC-yə həvalə edilərək eyni Sərəncamla da "Daşkəsən Filizsaflaşdırma" ASC ləğv edilmişdir.

Bugünkü görüşdə dəmir filizi yataqlarının işlənməsinin ilkin mərhələsinin vəziyyətinin öyrənilməsinə dair aparılan işlər haqqında mütəxəssislər tərəfindən məlumat veriləcəkdir.

Əlbəttə, sizlərin rəy və təkliflərinizi "Daşkəsən Dəmir Filiz" MMC-nin gələcək fəaliyyəti dövründə əməyin təhlükəsizliyinə və ətraf mühitin qorunmasına təsirin qiymətləndirilməsi prosesində nəzərə alınacaqdır.

Rayon İcra hakimiyyəti başçısının çıxışından sonra yataqların işlənməsinin ilkin mərhələsi, filiz mədənləri ərazilərində ilkin vəziyyətə dair 2020-ci ilin oktyabr ayından etibarən aparılan ekoloji monitorinqlər barədə mütəxəssislər tərəfindən məlumat verilib. Qeyd olunub ki, istismarı aparılacaq filiz sahəsi və ətraf ərazilərdə təfsilatlı ekoloji monitorinq və tədqiqat işləri davam etdirilir. İstehsalat prosesi nəticəsində yaranan bütün növ tullantıların qanunauyğun şəkildə idarə olunması, su və enerji ehtiyatlarından səmərəli istifadə edilməsi və digər konkret tədbirlər Sənəddə də öz əksini tapacaqdır.

Görüş iştirakçıları ətraf mühitə təsirin qiymətləndirilməsi Sənədinin mövcud qanunvericiliyin tələblərinə uyğun işlənilməsinin və Sənəddə öz əksini tapan tədbirlərin icrasının vacibliyi xüsusilə qeyd ediblər. Həmçinin ekoloji monitorinq və ətraf mühitin idarəedilməsi tədbirlərinə dair bir sıra təkliflər səsləndirilib, müzakirə aparılıb. İrəli sürülən təkliflər aidiyyəti üzrə baxılması və sözügedən Sənədə daxil edilməsi üçün protokollaşdırılıb.

DAŞKƏSƏNDƏ "GÜNƏRZİ QAYĞI MƏRKƏZİ" FƏALİYYƏT GÖSTƏRİR

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) sosial sifarişləri əsasında ixtisaslaşmış vətəndaş cəmiyyəti institutları tərəfindən icra olunan sosial xidmət layihələrinin bir istiqaməti də ölkəmizin müxtəlif bölgələrində günərzi mərkəzlərinin yaradılmasına yönəlib.

ƏƏSMN-nin tabeliyində Sosial Xidmətlər Agentliyinin dəstəyi ilə "Vətəndaşların Sosial Rifahı Naminə" İctimai Birliyi tərəfindən icra olunan müvafiq layihə çərçivəsində Daşkəsən rayonunda da 2019-cu ildə yaradılmış "Günərzi Qayğı Mərkəzi" fəaliyyətini davam etdirir.

İctimai Birliyin rəhbəri İradə Rizazadə məlumat verib ki, "Günərzi Qayğı Mərkəzi"nin yerlərdə təşkil edilməsi uşaqların dövlət uşaq müəssisələrinə düşməsinin qarşısının alınması, çətin həyat şəraitində olan uşaqların və ailələrin sosial xidmətlərə çıxışının təmin edilməsi məqsədi daşıyır. Mərkəz 3-12 yaş arası uşaqlara yardım göstərir.

"Günərzi Qayğı Mərkəzi"ndə əsasən məktəbyaşlı uşaqlardan ibarət iki qrup formalaşdırılıb. Mərkəzə tək valideynli, hər iki valideynini itirmiş və genişlənmiş ailənin himayəsində olan uşaqlar, birinin əlilliyi və ya xəstəliyi olan, digərinin (və ya hər iki valideyninin) isə daimi iş yerinin olmaması səbəbindən günün çox hissəsini günəmuzd qaydada işləyən valideynlərin uşaqları və təhsilə cəlb oluna bilən sağlamlıq imkanları məhdud uşaqlar cəlb edilib.

"Günərzi Qayğı Mərkəzi" uşaqların yaş və psixoloji xüsusiyyətlərinə uyğun təlim-tərbiyə prosesi təşkil edir, risk qrupuna aid olan uşaqların ahəngdar inkişafı və tərbiyəsi ilə məşğul olur, müxtəlif təlimlər həyata keçirir.

Psixoloji testlər və məsləhət saatları, musiqi dərsləri, idman yarışları və əyləncəli oyunlarda uşaqlar böyük həvəslə iştirak edirlər.

Mərkəzdə uşaqların asudə vaxtlarının səmərəli təşkili məqsədilə müxtəlif tədbirlər görülür. Onlar maraq və bacarıqlarından asılı olaraq dərnəklərə cəlb edilir, eyni zamanda məktəbdə oxuyan uşaqların ev tapşırıqlarının hazırlanmasına köməklik göstərilir.

Uşaqların psixi-sosial inkişafı məqsədilə mərkəzdə sosial işçilər, pedaqoqlar, tərbiyəçilər, psixoloqlar çalışırlar. Uşaqlar gün ərzində yeməklə təmin olunurlar.

Bundan əlavə "Vətəndaşların Sosial Rifahı Naminə" İctimai Birliyi tərəfindən Daşkəsəndə Sağlamlıq imkanları məhdud uşaqlar üçün sosial reablitasiya Mərkəzi də fəaliyyət göstərir.

DAŞKƏSƏNDƏ KORONAVİRUSA (COVİD-19) QARŞI PEYVƏNDLƏMƏ VƏ DEZİNFEKSİYA İŞLƏRİ DAVAM ETDİRİLİR

Ölkə başçısı cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın Azərbaycanda koronavirus (COVID-19) pandemiyası ilə mübarizə çərçivəsində tapşırıq və göstərişlərinə uyğun olaraq Daşkəsən rayon İcra hakimiyyəti tərəfindən rayon ərazisində pandemiyaya qarşı kompleks tədbirlər davam etdirilir.

Yoluxma hallarının qarşısının alınması, bu sahədə aparılan profilaktik işlərin effektivliyinin yüksəldilməsi, rayon ərazisində tibbi-profilaktik, dezinfeksiyaedici tədbirlərin intensivləşdirilməsi məqsədilə rayon Gigiyena və Epidemiologiya Mərkəzinin dezinfektorları, kommunal təsərrüfat xidmətinin əməkdaşları xüsusi təyinatlı avtonəqliyyat vasitələrinin köməyi ilə Daşkəsən şəhərinin əsas küçə və yollarında, yaşayış binalarında, bazar ərazisində, bankomat və ödəniş terminallarında, məişət tullantılarının atıldığı konteynerlərdə, idarə, müəssisə və təşkilatların inzibati binalarında, təhsil müəssisələrində, sosial obyektlərdə, o cümlədən rayonun qəsəbə və kəndlərində kimyəvi məhlullarla dezinfeksiya işlərini mütəmadi aparırlar.

Daşkəsən rayon İcra hakimiyyəti başçısı yanında qərargahın keçirilən iclaslarında rayonun epidemioloji vəziyyəti ətraflı təhlil olunur, qərargah üzvlərinin və ərazi icra nümayəndəliklərində yaradılmış mobil qrupların fəaliyyəti nəzarətdə saxlanılır. Yoluxma halları aşkar edildikdə operativ tədbirlər görülür.

Yaradılmış mobil qruplar tərəfindən əhali ilə maarifləndirici söhbətlər aparılır, onlara peyvənd olunmaları tövsiyə edilir. Bildirilir ki, adamların sıx toplaşdığı yerlərə mümkün qədər az getsinlər. İctimai nəqliyyatdan istifadə zamanı ara məsafəni gözləsinlər. Şəxsi gigiyena qaydalarına ciddi riayət etsinlər. Qapalı yerlərdə mütləq tibbi maskadan istifadə olunmalıdır.

Məlumat üçün qeyd edək ki, yeni növ koronavirus (COVID-19) infeksiyası əleyhinə istifadə edilən peyvəndlər orqanizmdə məlum infeksiyanın "şərti xəstələnmə modeli"ni yaradır. Nəticədə orqanizm virusa qarşı anticisim, yəni onu məhv edən bioloji fəal hissəciklər hazırlayır. Buna immunitet deyilir. Əmələ gələn qoruyucu anticisimlər xəstəliyi törədən virusu məhv edir. Burada ruhi stabillik, yəni xəstəlikdən qorxmamaq, pozitivə yüklənmək və həyat eşqinin yüksək olması həlledici şərtdir. Anticisimlər virusları tam məhv etdikdən və ya neytrallaşdırdıqdan sonra parçalanaraq orqanizmdən xaric olur. Ona görə də, COVID-19-dan sağalmış və ya peyvənd olunmuş vətəndaşların orqanizmlərində yaranmış anticisimlərin miqdarı tədricən azalır və 6-8 ay sonra minimal həddə enir. Vaksinin əhəmiyyəti immuniteti gücləndirmək yolu ilə xəstəlikdən qorunmaq, infeksiyanın ötürülməsini məhdudlaşdırmaq, ölüm halının qarşısını almaq və nəticədə səhiyyə sisteminə düşən yükü azaltmaqdan ibarətdir. Bir sözlə, koronavirusa qarşı mübarizə aparmağın yolu vaksin olunmaqdan keçir.

Daşkəsən rayonunda əhalinin vaksinasiya strategiyasına uyğun olaraq pandemiyası ilə mübarizə tədbirləri çərçivəsində sakinlər Mərkəzi Rayon Xəstəxanasında peyvənd edilirlər. Müəssisənin yoluxucu xəstəliklər şöbəsində vaksinasiya üçün müraciət edənlər qeydiyyata alınır və həkim müayinəsindən keçirlər. Peyvəndə əks göstərişi olmayan sakinlərə vaksin vurulur. Rayonun ucqar dağ kəndlərində bu proses paralel olaraq aparılır. Kəndlilər də vaksinasiya prosesindən kənarda qalmırlar. Səyyar qruplar həkim məntəqələrində sakinlərin müraciətlərini qəbul edirlər.

Peyvənd olunmaq virusa yoluxmaqdan tam xilas etmir, lakin yoluxma zamanı xəstəliyi daha yüngül keçirməyə səbəb olur. Peyvənd vurulandan sonra maksimum səviyyəyə çatan qoruma müəyyən vaxtdan sonra yenə zəifləyir. Ona görə də bütün ölkə ərazisində olduğu kimi Daşkəsəndə də 3-cü doza ("buster" doza) ilə peyvəndolunma mərhələsinə başlanılmışdır. İlk iki dozanın vurulmasından sonra üç, altı, səkkiz ay müddətində qoruyuculuğun davam etdiyi, sonra azalmağa başladığı müşahidə edilir.

"Buster" doza gücləndirici, möhkəmləndirici məqsəd daşıyır. Yəni bu, heç də yeni bir peyvəndləmə prosesi deyil, ilk iki dozanın davamı olaraq əlavə gücləndirici dozadır, immuniteti gücləndirməyə xidmət edir.

Daşkəsən rayon İcra hakimiyyətinin başçısı yanında yaradılmış Operativ Qərargah tərəfindən pandemiya ilə mübarizə istiqamətdə bütün lazımi tədbirlər həyata keçirilir, görülən işlərin nəticəsi gündəlik müzakirə edilir və nəzarətdə saxlanılır.

DAŞKƏSƏNDƏ GÜNEY-ZAĞALI SU ANBARI ƏTRAFINDA EKOLOJİ AKSİYA KEÇİRİLİB

Sentyabrın 17-də "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin (QSC) törəmə müəssisəsi "Daşkəsən Dəmir Filiz" (DDF) MMC-nin təşəbbüsü Daşkəsən rayon İcra hakimiyyətinin və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) dəstəyi ilə Daşkəsən rayonunda yerləşən Güney-Zağalı su anbarının ətrafında ekoloji aksiya keçirib.

Güney-Zağalı su anbarı Daşkəsən şəhərindən 8 kilometr cənubda, Xoşbulaq və Zağalı kəndlərinin arasında – Qoşqarçay dərəsində yerləşir. Qoşqarçay və Hamamçayın suyu ilə qidalanan su anbarı 1959-cu ildə layihələndirilmiş, 1969-cu ildə inşası başa çatdırılmışdır. Su anbarı Azərbaycan Dağ-Mədən Filizsaflaşdırma Kombinatının Saflaşdırıcı Fabrikində nəm üsulla konsentrat istehsalı üzrə texniki suya tələbatın ödənilməsi məqsədi ilə inşa edilmişdir.

Qeyd edilən dövrdə illik 1 milyon ton konsentratın istehsalı üçün su anbarından 3 milyon kub metr həcmində su təchiz edilirdi. Gələcəkdə nəzərdə tutulan illik 1.2 milyon ton konsentratın istehsalı üçün su anbarından təchiz ediləcək sərfiyyat 3.6 milyon kub metr təşkil edəcək. Hazırda DDF MMC-nin balansında olan hövzənin ümumu su həcminin artırılması və su ehtiyatının mühafizəsi üçün müvafiq tədbirlər görülür. Su ehtiyatının daha səmərəli istifadəsi məqsədilə Güney-Zağalının deqradasiyaya məruz qalmış infrastrukturu yenidən qurulur.

Beynəlxalq Sahilyanı Təmizlik Gününə həsr edilmiş aksiya çərçivəsində "AzerGold" QSC, ETSN və Daşkəsən rayon İcra hakimiyyətinin əməkdaşlarının iştirakı ilə su hövzəsinin ətrafı müxtəlif məişət tullantılarından təmizlənib, tullantılar çeşidlənərək təkrar emala yönəldilib. Bununla yanaşı, əraziyə ətraf mühitinin mühafizəsinə dair maarifləndirici lövhələr yerləşdirilib.

Tədbirin əsas məqsədi su hövzələrində təmizliyə riayət olunmasını təbliğ etmək, sahilyanı ərazilərin tullantılarla zibilllənməsinin qarşısını almaq və təbiətin qorunmasına töhfə verməkdir.

Aksiya çərçivəsində, həmçinin balıq növlərinin təbii populyasiyasının artırılması məqsədilə su hövzəsinə yerli şəraitə uyğun olaraq qızılxallı forel körpələri buraxılıb. Balıqların suya buraxılması mərasimində Daşkəsən rayon İcra hakimiyyətinin başçısı Əhəd Abıyev, Ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev və "AzerGold" QSC-nin İdarə Heyətinin sədri Zakir İbrahimov, DDF MMC-nin Baş direktoru Oqtay Məmmədov iştirak ediblər.

Beynəlxalq Sahilyanı Təmizlik Günü su hövzələri sahillərinin tullantılardan təmizlənməsinə yönələn irimiqyaslı aksiyaların keçirildiyi təqvimdir. Son 30 il müddətində dünyanın 100-dən çox ölkəsi hər il bu günü qeyd edir. Bu məqsədlə bütün dünya üzrə on minlərlə insan könüllü olaraq yaşadıqları ərazilərin sahillərini tullantılardan təmizləyirlər.

DAŞKƏSƏNDƏ PROKURORLUQ İŞÇİLƏRİNİN PEŞƏ BAYRAMI GÜNÜ QEYD OLUNUB

1 Oktyabr – Prokurorluq İşçilərinin Peşə Bayramı Günü və Azərbaycan prokurorluğunun yaradılmasının 103-cü ildönümü münasibətilə Daşkəsən rayon İcra hakimiyyətinin məsul əməkdaşları, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri və ictimaiyyət nümayəndələri Daşkəsən rayon prokuroru Maarif Hüseynovun iştirakı ilə ulu öndər Heydər Əliyevin Daşkəsən şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edib, önünə gül dəstələri düzüblər.

Daha sonra rayon prokurorluğunun əməkdaşları Daşkəsən Şəhidlər Xiyabanını ziyarət ediblər.

Bayram tədbirində başda Azərbaycan Respublikasının Baş Prokuroru hörmətli Kamran Əliyev olmaqla, bütün prokurorluq işçilərinin peşə bayramı təbrik edilib, onlara çətin və şərəfli xidməti fəaliyyətlərində uğurlar arzulanıb.

Sonda xatirə şəkli çəkilib.

DAŞKƏSƏNDƏ ƏDLİYYƏ İŞÇİLƏRİNİN PEŞƏ BAYRAMI QEYD EDİLİB

22 Noyabr – Ədliyyə işçilərinin peşə bayramı və Azərbaycan Ədliyyəsinin 103-cü ildönümü münasibətilə Daşkəsən rayon İcra hakimiyyətinin başçısı Əhəd Abıyev, Daşkəsən rayon Məhkəməsinin sədri Azad Əliyev, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri və əməkdaşları ulu öndər Heydər Əliyevin Daşkəsən şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edib, önünə gül dəstələri düzüblər.

Daha sonra Daşkəsən Şəhidlər Xiyabanı ziyarət olunub.

Bayram tədbirində başda Azərbaycan Respublikasının Ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri hörmətli Fikrət Məmmədov və Ali Məhkəmənin sədri hörmətli Ramiz Rzayev olmaqla, bütün ədliyyə işçilərinin peşə bayramı təbrik edilib, çətin və şərəfli fəaliyyətlərində uğurlar arzulanıb. Sonda xatirə şəkli çəkilib.

DAŞKƏSƏNDƏ MİNA VƏ PARTLAYICI SURSATLARIN TƏHLÜKƏSİNƏ DAİR MAARİFLƏNDİRMƏ TƏDBİRİ KEÇİRİLİB

Noyabrın 26-da Daşkəsən rayonunda Avropa İttifaqının maliyyə yardımı, UNICEF-in Azərbaycandakı nümayəndəliyinin və Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) dəstəyi ilə Beynəlxalq Avrasiya Mətbuat Fondunun (BAMF) həyata keçirdiyi "Partlayıcı sursatların təhlükəsinə dair maarifləndirmə" (PSTM) layihəsi keçirilib.

Maarifləndirmə layihəsinin həyata keçirilməsində məqsəd Daşkəsən rayonunun Xoşbulaq, Qaraqullar, Qaratağlar, Astaf, Zağalı, Qabaqtəpə, Təzəkənd, Pirverdilər, Kollu, Yolqullar və Çıraqlı kəndlərində yaşayan, mina və digər partlayıcı sursatların təsirinə məruz qalan və ya qalması ehtimal olunan sakinlərin mina problemi barədə məlumatlılıq səviyyəsinin artırılması, onları təhlükəsiz davranışa təşviq etməklə risklərin azaldılmasıdır.

Daşkəsən rayon İcra Hakimiyyətinin əməkdaşı Elmar Əliyev layihənin əhəmiyyətini və aktuallığını qeyd edib və təşkilatçılara rayon İcra Hakimiyyətinin başçısı Əhəd Abıyevin adından təşəkkürünü bildirib.

Təlimatçı Musa Cəlalov proqram haqqında ətraflı məlumat verib, lazımi bilik və bacarıqları çatdırıb, sualları cavablandırıb. Təlimlərdə BAMF-ın regional koordinatorları Fariz Vəliyev və Vüqar Yusifli də iştirak ediblər.

Sonda təlim iştirakçılarına maarifləndirici materiallar paylanıb.

DAŞKƏSƏN RAYONUNDA TƏBİİ FƏLAKƏT BAŞ VERİB VƏ NƏTİCƏLƏRİ ARADAN QALDIRILIB

Daşkəsən rayonu ərazisində 11 avqust 2021-ci il tarixdə saat 18:00 radələrindən başlayaraq baş vermiş təbii fəlakət – güclü külək əsməsi və qasırğa nəticəsində çoxmərtəbəli yaşayış binalarının və fərdi evlərin, sosial-inzibati binaların dam örtüyünə, yaşıllaşdırma, elektrik, rabitə və qaz təsərrüfatlarına ciddi ziyan dəymişdir.

Güclü külək Daşkəsən şəhəri S.Vurğun küçəsi 17 nömrəli çoxmərtəbəli yaşayış binasının və S.Vurğun adına 4 nömrəli tam orta məktəbin, Quşçu qəsəbəsində çoxmərtəbəli yaşayış binasının dam örtüyünü taxta konstruksiyalarla birlikdə tamamilə uçuraraq kənara atmışdır.

Rayon Hidrometeorologiya stansiyasından verilən məlumata görə küləyin sürəti saniyədə 30-35 metr təşkil etmişdir. Baş vermiş təbii fəlakət barədə aidiyyəti qurumlara məlumat verilmişdir.

Daşkəsən rayon İcra hakimiyyəti dəymiş ziyanların həcminin müəyyən edilməsi istiqamətində Fövqəladə Hallar Nazirliyi ilə birgə operativ surətdə işlər aparmış, aidiyyəti qurumlarla müvafiq tədbirlər görərək fəlakətin vurduğu ziyanları aradan qaldırmışdır.

DAŞKƏSƏNDƏ "NARKOMANİYAYA YOX DEYƏK!" MÖVZUSUNDA TƏDBİR KEÇİRİLİB

Noyabrın 29-da Daşkəsən şəhər İ.Nəsimi adına 1 saylı tam orta məktəbdə yetkinlik yaşına çatmayan məktəblilərin zərərli vərdişlərdən qorunması, müvafiq sahədə təlim-tərbiyə, habelə maarifləndirmə işlərinə töhfə məqsədilə "Narkomaniyaya yox deyək!" mövzusunda tədbir keçirilib.

Tədbirdə Daşkəsən rayon İcra hakimiyyətinin məsul əməkdaşları Ruslan Məmmədəliyev və Elmar Əliyev, Daşkəsən rayon Polis Şöbəsinin rəisi Seymur Əfəndiyev və Şöbənin əməkdaşları, rayon Təhsil Şöbəsinin metodisti Nəməddin Mirzəyev, rayon mərkəzi xəstəxanası publik hüquqi şəxsin nümayəndəsi Zaman Əliyev, məktəbin müəllim və şagird kollektivi iştirak ediblər.

İlk olaraq Vətən uğurunda qəhrəmanlıq göstərmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Məktəbin direktoru Sevil Ələsgərova çıxışında narkomaniyanın törətdiyi fəsadlar, gənclərin bəhs olunan ictimai bəladan qorunması və bu sahədə onlara göstərilən geniş dəstək tədbirlərindən danışıb.

Çıxış edən rayon Polis Şöbəsinin rəisi Seymur Əfəndiyev rayonda narkomaniyaya qarşı keçirilən tədbirlər, görülən profilaktik işlər barədə məlumat verib. Narkomaniyanın cəmiyyətimizə, dövlətimizə və ümumilikdə, bəşəriyyətə dəyəri ölçülməyəcək dərəcədə fəsadlar vurduğunu bildirərək, belə maarifləndirmə tədbirlərinin zəruriliyini və əhəmiyyətini tədbir iştirakçılarının diqqətinə çatdırıb. Seymur Əfəndiyev yetkinlik yaşına çatmayan məktəblilərin və gənclərin zərərli vərdişlərdən qorunması ilə bağlı ictimaiyyət arasında təbliğat və müvafiq maarifləndirmə işlərinin gücləndirilməsinə hər zaman böyük ehtiyac duyulduğunu qeyd edib.

Rayon İcra hakimiyyətinin məsul əməkdaşı Elmar Əliyev çıxışında yeniyetmə və gənclərin narkomanlıq və digər zərərli vərdişlərdən qorunması, gənc nəslin savadlı, vətənpərvər ruhda böyüməsi və sağlam inkişaf etməsi istiqamətində ölkədə Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar və Dövlət Proqramından irəli gələn işlərin icra vəziyyəti barədə ətraflı çıxış edib, məktəblilərə və müəllimlərə tövsiyələr verib.

Tədbirdə həmçinin "Narkomaniyaya yox deyək!" adlı videoçarx nümayiş olunub, şagirdləri maraqlandıran suallar cavablandırılıb.

ALLAH RƏHMƏT ELƏSİN!

Daşkəsən rayon İcra hakimiyyətinin başçısı Əhəd Abıyev başda olmaqla Daşkəsən rayon İcra hakimiyyətinin kollektivi Prezident Administrasiyasının məsul işçisi Arif Novruzova

ANASI PAKİZƏ XANIM MƏMMƏD QIZI NOVRUZOVANIN

vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verir, Allahdan rəhmət diləyirlər.

Daşkəsən rayon İcra hakimiyyətinin başçısı Əhəd Abıyev başda olmaqla Daşkəsən rayon İcra hakimiyyətinin kollektivi RİHBA-nın sektor müdiri-baş mühasib Kazım Abdullayevə

QARDAŞI ABDULLAYEV NAZİM SƏTTAR OĞLUNUN

vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verir, Allahdan rəhmət diləyirlər.

PAYIZ-QIŞ MÖVSÜMÜNDƏ YANĞIN TƏHLÜKƏSİZLİYİ QAYDALARINA DİQQƏT ARTIRILMALIDIR

Yanğınların statistikası göstərir ki, payız-qış mövsümündə havaların soyuması, insanların istilik sisteminə tələbatlarının yaranması və bu məqsədlə elektrik və qaz təsərrüfatından daha çox istifadə etməsi nəticəsində yanğınların sayı yaz-yay dövrü ilə müqayisədə artır. Dünyanın hər yerində olduğu kimi respublikamızda da payız-qış mövsümündə bu artım qeydə alınır və yanğınların çox hissəsi yaşayış sektorunun payına düşür. Çox təəssüf ki, bu hadisələrin qarşısını hələ tamamilə almaq mümkün deyil. Ancaq yanğınların sayını minimuma endirmək, hadisə zamanı insan itkisinin qarşısını almaq mümkündür və Dövlət Yanğın Nəzarəti Xidmətinin qarşısında duran əsas vəzifə budur.

Dövlət Yanğın Nəzarəti Xidməti hər il payız-qış mövsümünün başlanması ilə əlaqədar müxtəlif qabaqlayıcı tədbirlər həyata keçirir.

Baş verən ən faciəli yanğın hadisəsi insan tələfatı ilə nəticələnən yanğınlardır və təbii ki, bu da mənzillərdə baş verən yanğınlar zamanı qeydə alınır. Mütəmadi olaraq əhali arasında təbliğat xarakterli söhbətlər aparılsa da, kütləvi informasiya və təşviqat vasitələrindən istifadə edərək maarifləndirmə işləri görülsə də vətəndaşlarımız eyni səhvləri yenidən buraxır, beləliklə də yeni-yeni yanğınlara, digər fəlakətlərə yol açırlar. Nəticədə isə ağır xəsarətlərlə xəstəxanaya düşür və ya həyatlarını itirirlər. Odur ki, çoxmərtəbəli binalara, yaşayış evlərinə baxışların keçirilməsi, əhali arasında yanğın-texniki biliyin artırılması məqsədilə təbliğat xarakterli işlərin görülməsi vacibdir və bu məsələ daimi olaraq müəssisə rəhbərlərinin diqqətində olmalı, Fövqəladə Hallar Nazirliyi Dövlət Yanğın Nəzarəti Xidmətinin əməkdaşları tərəfindən verilmiş göstəriş və tövsiyələrin icrası ilə bağlı müvafiq tədbirlər görməlidirlər.

Payız-qış mövsümünün başlanması ilə əlaqədar hər il Dövlət Yanğın Nəzarəti Xidmətinin əməkdaşları mənzillərdə baş verən yanğınların və insan tələfatının qarşısını almaq məqsədilə ərazi və regionlarda yanğın təhlükəsizliyinin artırılması ilə bağlı təbliğat xarakterli tədbirlər həyata keçirirlər.

AZƏRBAYCAN RESPUBLİKASININ FÖVQƏLADƏ HALLAR NAZİRLİYİ

Yanğınların təhlilinin nəticəsi göstərir ki, mənzillərdə yanğınların baş verməsinin əsas səbəbi elektrik və qaz cihaz və qurğularının quraşdırılması və istismarı zamanı yanğın təhlükəsizliyi qaydalarının pozulması, odla və qaynaq vasitəsilə işlər görülərkən ehtiyatsızlıq, uşaqların odla dəcəlliyi və s. olmuşdur. Ona görə də respublika ərazisində payız-qış mövsümü ilə əlaqədar havaların soyumasını nəzərə alaraq, yanğınların baş verməsinə şərait yaradan amillərin aradan qaldırılması istiqamətində qabaqlayıcı tədbirlərin gücləndirilməsi məqsədilə yaşayış binalarındakı mənzillərdə sakinlər arasında maarifləndirmə işləri aparılmış, işıqlandırmaq üçün açıq alovdan, yəni şam və məşəldən istifadə edilməsinin, sobanın üzərində və yanında paltar qurudulmasının, kustar üsulla düzəldilmiş elektrik avadanlıqlarından və cihazlarından istifadənin, bacaların yaxınlığındakı çardaqlarda tez alışan əşya və məişət qaz balonlarının saxlanılmasının, nasaz qaz cihazlarının istismarının, uşaqların odla dəcəlliyinin real yanğın təhlükəsi yaratdığı əhalinin nəzərinə çatdırılmışdır. Eyni zamanda bu məqsədlə sakinlərə Xidmət tərəfindən hazırlanmış "Vətəndaşların nəzərinə" adlı yaddaş vərəqələrinin paylanması, binaların lift kabinələrinə "Mənzildə yanğın zamanı davranış qaydaları", "Dəm qazı təhlükəsindən qorunma qaydası" adlı stikerlər yerləşdirilməsi təmin edilmişdir. Bu işə mənzil-kommunal istismar sahələrinin, qaz və elektrik enerjisinin istismarı idarələrinin, rayon bələdiyyə və icra hakimiyyətlərinin nümayəndələri də cəlb edilmişdir.

Son zamanlar qaz cihazlarının istismarı zamanı əhali arasında dəm qazından zəhərlənmə halları qeydə alınmaqdadır. Müəyyən olunub ki, bu hadisələrin əksəriyyəti vətəndaşların təhlükəsizlik qaydalarına riayət etməməsi səbəbindən baş verir. Dəm qazından zəhərlənmə halı yanğın olduqda, sobanın qapağı erkən bağlandıqda, qarajda, qapalı məkanda avtomobil mühərriki işlədikdə baş verir. Mənzillərdə isə dəm qazından zəhərlənmə təhlükəsi əksər hallarda evi qızdırıcı cihazlarla qızdırarkən və ya hamam otağında baş verir.

Qaz cihazlarından təlimata uyğun düzgün istifadə edilməməsi səbəbindən isə insan itkisi və xəsarət alması ilə nəticələnən partlayış, yanğın, zəhərlənmə kimi bədbəxt hadisələr də baş verir. Bu cür fövqəladə halların baş verməməsi üçün yaşayış sahələrində standartlara uyğun olmayan qaz cihazlarından istifadə etmək qadağandır. Hər bir məişət qaz cihazının təhlükəsizlik qurğuları daim saz vəziyyətdə olmalı və onlardan istifadə zamanı müəyyən edilmiş təhlükəsizlik qaydalarına tam riayət edilməlidir!

Əhali ilə görüşlərdə yanğına qarşı təbliğat apararkən onların nəzərinə çatdırılmalıdır ki, yaşayış binalarının bloklarında və mərtəbələrində quraşdırılmış paylayıcı elektrik lövhələrinin saz vəziyyətdə olmasına, "Elektrik qurğularının quraşdırılması qaydaları" və "Yanğın təhlükəsizliyi qaydaları"nın tələblərinə uyğun olaraq istismar edilməsinə, elektrik lövhələrində yalnız standarta uyğun elektrik qoruyucularından istifadə olunmasına diqqət yetirilməlidir. Həmçinin çardaqların daim təmiz saxlanılması, taxta konstruktiv elementlərinin oda-davamlı məhlulla hopdurulması, mövcud pəncərələrin şüşələnməsi, çardağa çıxış qapılarının, eləcə də yanğına qarşı divarlarda və ventilyasiya kameralarında quraşdırılmış qapıların bağlı və kip vəziyyətdə olması təmin edilməlidir. Yaşayış binalarının zirzəmiləri daim təmiz saxlanılmalı, giriş qapıları bağlı vəziyyətdə olmalı və açarlar birinci mərtəbədə yerləşən mənzillərdən birində və yaxud komendantda olmalıdır. Binaların birinci mərtəbəsində və zirzəmisində fəaliyyət göstərən obyektlərdə qaz cihazlarından istifadəyə yol verilməməlidir.

Yaşayış binalarının birinci mərtəbəsində layihə üzrə nəzərdə tutulmuş yanğın keçidlərinin açıq vəziyyətdə saxlanılmasına, başqa məqsədlər üçün istifadə edilməməsinə daim diqqət yetirilməlidir. Keçidlərin müəyyən təşkilat və idarələr, sakinlər tərəfindən tutulmasına imkan verilməməlidir.

Yaşayış evlərində elektrik və qaz cihazlarının təhlükəsiz istifadə olunmasına, tüstü boru və bacalarının düzgün quraşdırılmasına, təmizlənməsinə fikir verilməlidir. Yaşayış binalarının birinci mərtəbəsində, zirzəmisində tezalışan və yanar mayelərin saxlanılması, istənilən müəssisələrin, emalatxanaların və digər obyektlərin fəaliyyət göstərməsi, pilləkən qəfəslərində və dəhlizlərdə əl damlarının yaradılması, eləcə də pilləkən marşları altında və onların meydançalarında ev əşyalarının yığılması qadağandır.

Çoxmərtəbəli yaşayış binalarının mərtəbələrində yanğına qarşı daxili yanğın su kranlarını şlanqlarla, birləşdirici başlıq və lülələrlə təchizini, su təzyiqini qaldırmaq üçün nəzərdə tutulmuş nasosxanaların, avtomatik yanğınxəbərverici siqnalizasiya sisteminin, tüstüqovucu və ventilyasiya sistemlərinin işlək vəziyyətdə olması təmin edilməlidir.

Qəsəbə və kənd yaşayış məntəqələrində, fərdi həyətyanı sahələrdə də quru otların daşınması, yığılması, sobalardan istifadə zamanı yanğın təhlükəsizliyi qaydalarına ciddi riayət olunmasına da ciddi diqqət yetirilməlidir. Bütün bunlar isə əlbəttə ki, mənzillərdə, fərdi yaşayış sahələrində yanğınların baş verməməsinə və hadisə zamanı insan itkisinin qarşısının alınmasına xidmət edir.

Baş redaktor:
Elmar Əliyev

Telefon: (055) 803-03-17
(022) 215-52-83

Redaksiyanın ünvanı:
Daşkəsən şəhəri, H.Əliyev prospekti 2. "Daşkəsən" qəzetinin hesab nömrəsi: Kapital Bank Daşkəsən filialı h/h 33080019448400214184, VÖEN 4900026031, İndeks 66896 Lisenziya № 022637

Qəzet 1999-cu ildən Mətbuat və İnformasiya Nazirliyində qeydiyyatdan keçib. Qeydiyyat № B437 Lisenziya seriya AB №022637.

Qəzet "Daşkəsən" qəzetinin kompüter mərkəzində yığılmış, səhifələnmiş və "Azərbaycan Nəşriyyatı"nın mətbəəsində çap olunmuşdur.

Sifariş: 1495
Tiraj: 500